www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-27 avqust 2018-ci il Şənbə № 179 (7068) Qiymıəti 60 qəpik

**Xəbər**

## Rusiyadan silah alan ölkələr hədəfdə - Azərbaycanı nə gözləyir?

yazısı səh.6-da

**Gündəm**

### Bu gün Merkel Bakıya gəlir - nələr müzakirə ediləcək?



Almaniya kanslerinin son olaraq ölkəmizə gəlməsi onu deməyə əsas verir ki, Cənubi Qafqazla bağlı əsas müzakirələr Azərbaycanda olacaq

yazısı səh.9-da

### Ali məktəb məzunlarının iş tapmaq dərdi

yazısı səh.3-də

### Mehman Hüseynov azadlığa buraxılmadı - səbəb

yazısı səh.2-də

### Mətanət Əsədovanın araq qədəhi jurnalistlərin başında "çatlayır"

yazısı səh.13-də

*Qubad İbadoğlu:*

### "ABŞ eyni vaxtda bütün ölkələri çökdürə bilməyəcək"

yazısı səh.4-də

### Gəncədəki qanlı terrordan 50 gün keçdi

yazısı səh.5-də

### Paşinyanın Qarabağda "xidmət" keçən oğlu barədə ilginc faktlar

yazısı səh.4-də

### Hacı Mazan çətin durumda: həbs təhlükəsi var

yazısı səh.7-də

### Qarabağ üçün diplomatik həmlə - təşəbbüs şimaldan, yoxsa Qərbdən gələcək?

yazısı səh.12-də

### Dünyanın ən qəribə toy hekayətləri - bizdə və onlarda

yazısı səh.14-də

### Kişiləri qadınlardan tez öldürən səbəblər - araşdırma

yazısı səh.13-də

# ABŞ HƏRBÇİLƏRİ İRƏVANDA - PAŞİNYAN PUTİNİN SƏBRİNİ SINAĞA ÇƏKİR

**Düşmən ölkə intriqalı durumla üz-üzə:** Qərbə can atan erməni hökuməti Rusiyaya qarşı sanksiyaların altını çəkməyə başlayıb; İran əleyhinə sanksiyaların da "küləyi" İrəvanı vura bilər; Paşinyan Tehrana səfər edəcəkmi?




yazısı səh.7-də

# BŞİH Abutalıbovdan sonra "əriyir"

Memarlıq və Şəhərsalma Baş İdarəsindən sonra meriyanın Ticarət və Xidmət Departamentinin mətbuat xidməti də ləğv olundu; yeni icra başçısı təyinatı isə...

yazısı səh.7-də



### Həbsdən çıxan İlqar Məmmədov hər gün hakimə gedir

yazısı səh.7-də



### ABŞ tarixində üçüncü impiçment yaxınlaşır - Trampın yaxası əldə

yazısı səh.11-də



*Tural Abbaslı:*

### "Müxalifət Qərbə həmişə "ağ atlı oğlan" kimi baxıb"

yazısı səh.5-də



## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idman-əyləncə park kompleksinin açılışında olublar

**Avqustun 24-də prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.**

İdman-əyləncə park kompleksi Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrini əhatə edən ərazidə salınıb.

Görülən işlərlə tanışlıq zamanı Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan idman-əyləncə park kompleksi barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, yeni park kompleksinin ümumi sahəsi 36833 kvadratmetrdir. Parkın salındığı ərazi geoloji araşdırmalar nəticəsində aşkar edilən neft və mərmər tozu tullantılarından təmizlənib, torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıb. İdman-əyləncə park kompleksində təbii daşlardan və metaldan düzəldilən heykəllər landşaftla vəhdət təşkil edir. Buradakı heykəllər xüsusi dizayn və üslubu ilə fərqlənir. Parkda müxtəlif daş heykəllər, o cümlədən ürək formasında heykəllər və "Love" kompozisiyası quraşdırılıb. Park kompleksinin ərazisində örtülü şahmat pavilyonu da var. Bundan başqa, iki futbol meydançası, voleybol, həndbol və basketbol oyunları üçün universal idman meydançası və trenajor meydançası qurulub. Burada kafe də fəaliyyət göstərəcək.

## Türkmənistan Xəzərdə süni ada yaratdı

**Xəzər akvatoriyası hüdudlarında 50-dək ada qeydə alınıb. "Trend"in məlumatına görə, onların siyahısına daha biri - Xəzərin Türkmənistan sektorunda 170 hektarda yaradılmış süni ada da daxil olub.**

Yeni ərazi Türkmənbaşı beynəlxalq dəniz limanının tikintisi ilə birgə yaradılıb.

Hazırda mütəxəssislər adanı ekoloji turizm baxımından da qiymətləndirirlər.

Ada qızılqaz, qu, qaz, ördək, vağ, qutan və digər quş növlərinin qida, yuva və qışlama yerinə çevrilib.

## Bakıda 33 dərəcə isti olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.**

Abşeron yarımadasında gecə 20-24, gündüz 28-33, Bakıda gecə 21-23, gündüz 31-33 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.

Avqustun 25-də şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 24-25, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 25-26 dərəcə isti təşkil edəcək. Şimal-şərq küləyi əsəcək.

## BMT-dən İran, Rusiya və Türkiyəyə Zirvə görüşü təklifi

**BMT-nin Suriya üzrə xüsusi nümayəndəsi Steffan De Mistura İran, Rusiya və Türkiyə rəhbərlərini Cenevrəyə dəvət edib. Dəvət Suriyadakı mövcud vəziyyət və həmin ölkənin yeni Konstitusiyasının hazırlanması ilə bağlıdır.**

Suriya ilə bağlı Zirvə toplantısına gəlincə, onu sentyabrın 11-12-də İsveçrənin Cenevrə şəhərində keçirilməsi nəzərdə tutulur.

Bu zirvənin ardınca isə BMT ABŞ-ın da daxil olacağı paralel bir iclas təşkil etməyi planlaşdırır.(oxu.az)

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Mehman Hüseynov azadlığa buraxılmadı- səbəb

### Məhkəmə bloggerin "islah olunmadığını" bildirib

**Avqustun 24-də həbsdəki blogger Mehman Hüseynov vaxtından əvvəl şərti azadlığa buraxılması məsələsi ilə bağlı məhkəmə iclası keçirilib.**



Məlumat üçün qeyd edək ki, hazırda 14 saylı cəzaçəkmə müəssisəsində saxlanılan M.Hüseynov avqustun 10-da vaxtından əvvəl azadlığa çıxması üçün ərizə yazaraq müdafiəçisi vasitəsilə məhkəməyə təqdim edib. O, ərizəsində cəzasının çəkilməmiş hissəsindən azad edilməklə şərti formada azadlığa buraxılmasını istəyib.

Onun bu ərizəsi əsasında 14 saylı cəzaçəkmə müəssisəsində Qaradağ Rayon Məhkəməsinin hakimi Rəşad Məmmədovun sədrliyi ilə məhkəmə keçirildi. Lakin Mehman Hüseynov azadlığa buraxılmadı.

**Vəkil Şəhla Hümbətova** bildirib ki, cəzaçəkmə müəssisəsinin rəhbərliyi məhkəməyə mülahizəsində Mehman Hüseynovun islah olunmadığını deyib.

Müəssisə rəhbərliyi M.Hüseynovun cəzaçəkmə müəssisəsindəki tədbirlərdə, iməciliklərdə iştirak etməyib, müəssisə əməkdaşlarına qarşı səmimi olmayıb.

Məhkəmə bu mülahizəyə əsaslanaraq, Mehman Hüseynovu azadlığa buraxmayıb.

M.Hüseynov Cinayət Məcəlləsnin 76-cı (vaxtından əvvəl şərti azad edilmə) maddəsinə əsaslanaraq, məhkəməyə müraciət edib. Qeyd edək ki, M.Hüseynov ona verilmiş iki il azadlıqdan məhrumetmə cəzasının 1 il 5 ayından da çoxunu çəkib. M.Hüseynov 2017-ci ilin martın 3-dən həbsdədir. O, Suraxanı Rayon Məhkəməsinin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib. Qərar Nəsimi rayon Polis idarəsinin rəisi Musa Musayevin xüsusi ittiham qaydasında etdiyi şikayət əsasında çıxarılıb. Bloqqer Cinayət Məcəllesinin 147.2-ci (böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə ittiham olunub.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



## Putin iki separatçı lideri qəbul etdi

**Rusiya prezidenti Vladimir Putin və separatçı rejim rəhbərləri arasında görüş olub.**

Modern.az Rusiya mətbuatına istinadən xəbər verir ki, Putin müstəqilliklərinin Rusiya tərəfindən tanınmasının 10 illiyi ilə əlaqədar Cənubi Osetiya və Abxaziya rejimlərinin rəhbərlərini qəbul edib.

Rusiya prezidenti əvvəlcə Cənubi Osetiya rejiminin rəhbəri Anatoli Bibilovu qəbul edib.

Bundan sonra onlara qondarma Abxaziya rejiminin rəhbəri Raul Xacimba da qatılıb.

Onlar birgə yemək yeyiblər. Tərəflər süfrə arxasında beynəlxalq vəziyyəti də dəyərləndiriblər.

Qeyd edək ki, 1992-ci ilin mayın 29-da ilk müharibə nəticəsində Cənubi Osetiya öz müstəqilliyini elan edərək birtərəfli qaydada Gürcüstan tərkibindən çıxdığını bəyan edib. Bundan sonra 1992-1993-cü illər müharibəsindən sonra 1994-cü ildə Abxaziya da analoji addımı atıb. O zaman Rusiya qoşunlarını iki rejimə dəstək üçün həmin ərazilərə yeridib.



## 600-dən çox bal toplamış 5 abituriyent tələbə adını qazana bilməyib

**Dövlət İmtahan Mərkəzi xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə iştirakçıları istisna olmaqla, ali təhsil müəssisələrinə qəbul olmayan abituriyentlərin sayı, imtahan ballarının paylanması və s. haqqında məlumatları açıqlayıb.**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələrinə əsasən, I ixtisas qrupu üzrə 420-dən yuxarı bal toplayanların hamısı ali təhsil müəssisələrinə qəbul olublar. İlk yerləşdirmədən sonra isə bu göstərici 540 bal idi. Əlavə yerləşdirmədən sonra bu ixtisas qrupu üzrə 410-419 bal intervalında olan yalnız 1 abituriyent ali təhsil müəssisəsinə qəbul ola bilməyib. 300 və daha yuxarı bal toplayan abituriyentlərdən 2-si tələbə adını qazana bilməyib. Ümumiyyətlə isə 200 və daha artıq bal toplayaraq müsabiqədə iştirak etmək hüququ olanlardan (13 169 nəfər) cəmi 8 abituriyent ali təhsil müəssisələrinə qəbul ola bilməyib. Qeyd edək ki, ilk yerləşdirmədən sonra belə abituriyentlərin sayı 93 idi.

II ixtisas qrupu üzrə ilk yerləşdirmədən sonra 490 və daha yuxarı bal toplayanların, əlavə yerləşdirmədən sonra isə 420 və daha yuxarı bal toplayanların hamısı ali təhsil müəssisələrinə qəbul olublar. 400 bal və daha yuxarı toplayanlardan 2 abituriyent tələbə adını qazana bilməyib. Bu ixtisas qrupu üzrə 200 və daha yuxarı bal toplayaraq ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərin sayı 13 nəfərdir. İlk yerləşdirmədən sonra isə bu say 106 nəfər idi.

III ixtisas qrupu üzrə 550 və daha yuxarı bal toplayanların hamısı tələbə adını qazanıb. Bu ixtisas qrupu üzrə ilk yerləşdirmədən sonra 500 və daha yuxarı bal toplayaraq ali təhsil müəssisələrinə qəbul olmayanların sayı 21 nəfər idisə, ikinci yerləşdirmədən sonra bu göstərici 6 nəfərə bərabərdir. 200 və daha yuxarı bal toplayaraq uğur əldə edə bilməyənlərin sayı 410 nəfərdir. İlk yerləşdirmədən sonra isə bu say 796 nəfər idi.

**IV ixtisas qrupu üzrə yalnız 610 və daha yuxarı bal toplayanların hamısı ali təhsil müəssisələrinə qəbul olublar. 600-609 bal intervalında olan abituriyentlərdən 5 nəfər ali təhsil müəssisələrinə qəbul ola bilməyib. İlkin yerləşdirmədən sonra isə belə abituiyentlərin sayı 6 nəfər idi. 200 və daha yuxarı bal toplayaraq ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərin sayı isə 253 nəfərdir. I mərhələdə bu göstərici 386 nəfər idi.**

## Məkkəyə gedən bəzi azərbaycanlı hacıların səhhəti pisləşdi

**"Həcc ziyarətinin bütün əməlləri yerinə yetirilib və azərbaycanlı hacılar avqustun 23-də Minadan Məkkəyə qayıdıb".**

Bunu "Report"a açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) məsul nümayəndəsi, hazırda Səudiyyə Ərəbistanında olan Azərbaycanın Həcc missiyasının üzvü Həmdulla Babayev deyib.

Onun sözlərinə görə, azərbaycanlı hacılar avqustun 29-na kimi Məkkədə qalacaq və gündəlik namazları qılacaqlar.

H.Babayev bildirib ki, hazırda azərbaycanlılar arasında ağır xəstə yoxdur: "Sadəcə, insanlar arasında bir az soyuqdəymə halları qeydə alınıb. Bu da təbiidir. Hətta özüm də soyuqlamışam. Çünki isti havaya çıxıb hotelə geri qayıdanda soyuq su içir və kondisionerli otaqda oluruq. Ümumilikdə isə hər şey qaydasındadır. Hər kəsin əhval-ruhiyyəsi yaxşıdır".

**QMİ rəsmisi vurğulayıb ki, azərbaycanlı hacılar avqustun 29-dan etibarən Mədinəyə yola düşəcək**: "Sentyabrın 1-də isə üç reys olmaqla Bakıya geri dönüşlər həyata keçiriləcək".

Qeyd edək ki, bu il Həcc ziyarəti üçün Azərbaycana 1440 kvota ayrılıb və qiymət 4150 dollar müəyyən edilib. Ötən il olduğu kimi, Azərbaycandan təkrar Həcc ziyarətinə gedən zəvvarlar əlavə 535 dollar ödəyiblər.

## Ankara və Moskva viza rejimini sadələşdirəcək

**Türkiyə və Rusiya viza rejiminin sadələşdirilməsi üçün mexanizmin yaradılması barəsində razılaşma əldə ediblər. Bununla bağlı Rusiya xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra bildirib.**

Xəbəri "Gazeta.ru" yayıb.

Lavrovun sözlərinə görə, Rusiya qarşılıqlı şəkildə türk vətəndaşlarının səfərinin sadələşdirilməsi üçün danışıqlara hazırdır: "Biz ayrı-ayrı kateqoriyalarda türk vətəndaşlarının viza almasını sadələşdirmək üçün razılığa əldə etdik və yaxın vaxtlarda bununla məşğul olacağıq".

## Bakıda əcnəbini qarət etdilər

**Bakıda əcnəbi vətəndaşın pulunu oğurlayan şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyindən virtualaz.org-a verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsi 22-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində avqustun 22-də əcnəbi vətəndaş Mohamed Abdulla Ahmed Ali Al-Alinin rayon ərazisində kirayədə yaşadığı evdən 300 dirhəm (138 manat) pul oğurlamaqda şübhəli bilinən Astara rayon sakini Rafik Cəlilov və Bakı şəhər sakini Roman Lyaxov saxlanılıblar.**

Yeni Müsavat
N 179 (7068) 25 avqust 2018

# “Qarabağlılar torpağı erməniyə verib, Bakıya qaçdı” ittihamına rəylər

**Zaman-zaman Qarabağın işğalı ilə bağlı bir yersiz fikir səsləndirilir. Həmin bölgənin insanlarına ittiham irəli sürülür ki, guya torpağı qoyub, Bakıya qaçıblar. Bu günlərdə müğənni Mətanət Əsədovanın içki məclisindən olan videosu ətrafında başlayan qalmaqalda da belə bir gərəksiz fikir səsləndirildi. Müğənni Manaf Ağayev xanım həmkarını müdafiə edərkən başqa bir mübahisə yarandı. Özünü jurnalist adlandıran bir nəfər facebookda Manaf Ağayevi “torpağı qoyub, Bakıya qaçan” adlandırdı. Onun bu statusu isə birmənalı qarşılanmadı.**

Qarabağlıların ünvanına ara-sıra səsləndirilən bu qərəzli və yersiz fikirlərlə bağlı “Yeni Müsavat” ölkənin bir neçə tanınmış şəxsindən fikir alıb.

**Qarabağ Azadlıq Hərəkatının sədri Akif Nağı:**

“Hazırda torpaqlarımız işğal altındadır. Burada məsuliyyət o vaxtı hakimiyyətin üzərinə düşür ki, gərək onlar bu torpaqları qoruyardı, nəinki hərə əlinə bir "yaba" alıb qorumalı deyildi. Bununla belə, insanların özləri də öz ərazilərinin qorunmasında fəal iştirak etməli idi. Amma onlar iştirak ediblər. Buna görə onlar qınanılmalı deyil. Bütün işğal olunmuş ərazilərdə döyüşlər zamanı ciddi müqavimət göstərilib, minlərlə insan şəhid olub. Buna görə də Qarabağda yaşamış insanların barəsində bu cür ittiham səsləndirmək doğru deyil.

Qarabağ təkcə qarabağlıların deyil, bütövlükdə Azərbaycanındır. Bu gün həmin hadisələr Şəkidə baş versəydi, hər birimiz şəkili olmalıydıq. Yəni məsələni bu şəkildə qoymalıyıq. Nə qədər ki, Qarabağ işğaldan azad olmayıb, hər birimiz qarabağlıyıq, həm rəsmi səviyyədə, həm də qeyri-rəsmi. “Qarabağı erməniyə verib, Bakıya qaçdılar” deyənlər səviyyəsiz insanlardır. Məsələnin bu cür qoyulmasının qəti əleyhinəyəm. Bu, regionçuluq və tərbiyəsiz bir söhbətdir".

**Modern.az saytının baş redaktoru, əslən Kəlbəcərdən olan Elşad Eyvazlı** isə bu cür ifadə səsləndirənləri cahil, savadsız adlandırıb:

“Bu cür ifadə işlədən şəxslərin ağlının yerində olmadığını düşünürəm. Çünki söhbət burada Azərbaycan torpaqlarının işğalından gedir. Bu cür danışan insanlar həm qərəzlidirlər, həm də savadsız. Düşünürəm ki, bu fikri söyləyənlərin rəylərinə ciddi yanaşmaq da doğru deyil. Məsələni böyütməklə o cür ağılsızlara qoşulmuş oluruq. Mən bunun tərəfdarı deyiləm. Qarabağda çoxlu sayda Şəkidən, Qubadan, Lənkərandan, Kürdəmirdən, Lerikdən, Yevlaxdan və s. digər bölgədən olan vətəndaşlarımız vuruşub. Onların arasında şəhid olanlar var. Onda belə çıxır ki, onlar döyüşlərdə iştirak etməzdi?”

Məsələyə **“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan** da öz mövqeyini bildirib. O deyib ki, Qarabağ problemi başlayandan Azərbaycan siyasi və psixoloji tarazlığını itirib:

“Bu problem xalq, ölkə, hətta fərd olaraq hər birimizin həyatında mənfi izlər buraxıb. Bu, bizim ümummilli problemimizdi. Ona görə də Qarabağ məsələsini bir bölgənin, bir neçə rayonun problemi kimi təqdim etmək kökündən yanlışdır. Əslən qarabağlı olmasam da, mən özümü qarabağlı sayıram. Qarabağ və ona daxil olan ayrı-ayrı rayonlardan 20-25 illik çox yaxın dostlarım, tanışlarım var. Bu insanların necə bir xiffət çəkdiklərinə, hansı acıları yaşadıqlarına şahidəm. Hansısa qarabağlı dostumuzun, vətəndaşımızın acısı bizim acımızdı. Onların rayonlarının, kəndlərinin işğalı bizim el-obamızın, kəndimizin işğalıdır. Millət olaraq məsələyə bu cür yanaşmalıyıq. Heç kəsin haqqı yoxdur ki, qarabağlıları ”Qarabağı erməniyə verib, Bakıya qaçdılar" deyə, suçlasın. Qarabağlılar və digər sərhəd bölgəsinin insanları öz el-obalarını düşmənə təslim etməmək üçün son ana qədər vuruşublar. Şuşadan, Ağdamdan, Xocalıdan, Füzulidən, Cəbrayıldan, Laçından, Tərtərdən, Zəngilandan, Qubadlıdan, Gədəbəydən, Qazaxdan, Naxçıvandan, Goranboydan, Gəncədən, Kəlbəcərdən, Tovuzdan və digər rayonlardan vətən savaşına qatılan, düşmənlə vuruşan yüzlərlə, minlərlə qardaşlarımız olub. Qarabağ camaatı minlərlə şəhid verib müharibədə. Sadəcə olaraq həmin dövrdə Azərbaycanda dövlət tam formalaşmamışdı, həmçinin bizi xalq və ölkə olaraq müharibədə məğlub etmək istəyən qüdrətli dövlətlər vardı. Onların gizli-aşkar dəstəyi ilə ermənilər torpaqlarımızı işğal etdi. Bu müharibədə Türkiyədən başqa bizim tərəfimizi tutan ikinci bir dövlət olmayıb. Biz təkcə ermənilərlə vuruşmamışıq Qarabağda, dünyanın, regionun ən böyük dövlətləri ilə vuruşmuşuq. Nə yazıq ki, Qarabağdan olmayan milli satqınların da yaxından dəstəyi ilə Ermənistan Dağlıq Qarabağı, həmçinin bir neçə başqa rayonumuzu işğal etdi. Bu işdə Qarabağ camaatını suçlamaq, onları ittiham etmək nadanlıqdı, cahillikdi".

**Azər Ayxan bildirib ki, “vətənini erməniyə verib, Bakıya qaçdı” demək şəhidlərin haqqına girməkdi:**

“Həmçinin o şəhidləri, qaziləri doğub böyüdən anaların, o oğulların alınlarından öpərək Vətən savaşına yollayan ataların haqqına girməkdi. Fikir verin, 1988-ci ildən bəri Azərbaycan xalqının ağzının dadı qaçıb, xoşbəxtliyimiz, rahatlığımız yoxdur. Qarabağ məsələsi həll olunana qədər belə də davam edəcək. Ona görə də Qarabağ probleminə qarabağlıların problemi kimi yanaşmamalıyıq. Bu cür yanaşanların da ağzından vurmalıyıq, belələrini ictimai qınağa məruz qoymalıyıq”.



**Akif Nağı:** “Bu, regionçuluqdur və tərbiyəsiz bir söhbətdir”



**Elşad Eyvazlı:** “Bu cür danışan insanlar qərəzli, cahil, savadsızlardır”



**Azər Ayxan:** “Qarabağlılar torpağı düşmənə verməmək üçün son ana qədər vuruşublar”

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Ali məktəb məzunlarının iş tapmaq dərdi




## ƏƏSMN rəsmisi: “7 ayda 10 900 gənc işlə təmin olunub”

**Hər il orta məktəbləri yüz mindən çox azərbaycanlı gənc bitirir. Onların böyük əksəriyyəti təhsil almaq üçün ali məktəblərə sənəd təqdim edir. Lakin onların heç də hamısı arzusuna çatmır. Ali məktəblərə hər il 45 minə yaxın gənc qəbul olur. AmmaE**

Əmmasına gəlincə, təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, 4-5 ildən sonra onların yalnız 42%-i işlə təmin olunur: “Gənclər 4 illik ali təhsil almışlardan daha uğurlu karyera qura bilər, daha çox uğur əldə edə bilərlər. Əslində məktəbi yeni bitirmiş gənclər haqda kiçik araşdırma aparsaq, görərik ki, bir çox hallarda 4 illik ali təhsil, sadəcə, vaxt itkisidir. Bunun əvəzinə gənclər peşə hazırlığı və peşə təlimi məktəblərinə üz tutsalar, konkret bir peşə ilə məşğul olsalar, daha uğurlu olar. Çünki ali təhsilli şəxslərin heç də hamısı təhsilini başa vurduqdan sonra işlə təmin olunmurlar. Peşə təhsili alanlar isə hətta təhsil aldıqları dövrdə belə işlə təmin olunurlar. Misal üçün, hər il Təhsil Nazirliyi tərəfindən orta məktəbdə çalışmaq üçün müəllimlərin işə qəbulu üçün imtahan keçirilir. Bu imtahanlar zamanı vakansiya çıxarılan 5 min yerə qəbul olmaq üçün 50 min ali təhsilli şəxs sənəd təqdim edir. Nəticə etibarilə 45 min şəxs əli diplomlu işsiz ordusu yaranır. Təəssüflər olsun ki, məktəbi bitirən gənclərə bu düzgün izah olunmur və onlar bunu çox gec başa düşürlər”.

Təhsil ekspertinə görə, ali təhsilli işsiz olmaqdansa, peşə təhsili alıb yüksək gəlirli işçi olmaq daha effektivdir: “Dövlət qulluğuna qəbul imtahanlarında iştirak edən məzunların da müvəffəqiyyət nəticəsi yuxarı deyil. İmtahanda iştirak edən şəxslərin cəmi 25-30 faizi sonda işlə təmin olunur”.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) mətbuat xidmətinin rəhbəri Fazil Talıblı qəzetimizə açıqlamasında ƏƏSMN yanında Dövlət Məşğulluq Xidməti tərəfindən ali təhsil müəssisələrini bitirmiş gənclərin məşğulluğunun təminatı yönündə müvafiq işlər aparıldığını söylədi: “Belə işlərdən biri kimi, ali təhsil müəssisələrində tələbə və məzunların əmək bazarına inteqrasiya və məşğulluq imkanlarının artırılması üçün ”Karyerada ilk addım" devizi altında aktiv məşğulluq tədbirləri keçirilir. Həmin tədbirlərdə vakant iş yerləri təqdim olunmaqla və vakant iş yerlərinə göndərişlər verilməklə, yanaşı, tələbə və məzunlarla işəgötürənlərin ünsiyyətinə, ilkin əlaqələr qurmalarına imkan yaradılır. Bu da işəgötürənlərin gələcəkdə ixtisaslı işçi seçimi, gənclərin isə əmək bazarına daxil olma imkanlarını artırır. Bu il də artıq Bakı Biznes Universitetində, Lənkəran Dövlət Universitetində, Azərbaycan Aqrar Universitetində, Gəncə Dövlət Universitetində “Karyerada ilk addım” devizi altında aktiv məşğulluq tədbirləri keçirilir və qarşıdakı dövrdə də digər ali təhsil müəssisələrində bu tədbirlər davam etdiriləcək".

F.Talıblı bu ilin 7 ayında nazirliyin məşğulluq orqanları tərəfindən 10900 gəncin işlə təmin olunduğunu dedi: “Həmin gənclərin də mühüm bir hissəsi məhz ali təhsil müəssisələrini yenicə bitirmiş gənclər olub. İş təcrübəsi olmayan və əmək bazarına daxil olmaqda çətinlik çəkən gənclərin məşğulluğuna yönəlik yeni Pilot Proqrama hazırlıq işləri də başlayıb. Bu Proqram Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə birgə icra olunan ”2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın icrası çərçivəsində BƏT-in dəstəyi ilə həyata keçiriləcək. Proqramın təşkili üzrə tələblər də bu günlərdə hazırlanaraq nazirliyin müvafiq Əmri ilə təsdiqlənib. Həmin Proqram ƏƏSMN yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarında işaxtaran və ya işsiz kimi qeydiyyata alınmış, ali, orta-ixtisas və ilk peşə-ixtisas təhsil müəssisələrini bitirmiş, iş təcrübəsi olmayan və əmək bazarına daxil olmaqda çətinlik çəkən 18-29 yaşlı 48 nəfər gənc əmək haqlarının 12 ay ərzində 50 faizinin BƏT tərəfindən müvafiq işəgötürənlərə ödənilməsi şərti ilə kiçik və orta sahibkarlıq subyektlərində işlə təmin ediləcək. Həmin gənclərlə əmək müqaviləsi də ən azı 24 aylıq (3 ay sınaq müddəti müəyyən edilməklə) müddətə bağlanılacaq".

Nazirliyin rəsmisi onu da qeyd etdi ki, bu gün ali təhsilli gənclərin əmək bazarına inteqrasiyasında müasir üsullar, innovativ metodlar əsasında iş axtarışı bacarıqlarına malik olması da xüsusi önəm kəsb edir: "BMT İnkişaf Proqramı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında icra olunan "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsi ilk dəfə işaxtaran ali təhsilli gənclərə bu yöndə dəstək verir. Layihəyə əsasən, əvvəllərdə Bakı, Sumqayıt şəhərlərində də SYSLAB (Yenilik və Məşğulluq üzrə Sistem Laboratoriyası) təlim mərkəzləri fəaliyyət göstərib, son illərdə isə Gəncə şəhərində və Masallı rayonunda belə mərkəzlər fəaliyyətə başlayıb. İndiyədək qeyd olunan mərkəzlərdə 700-dən çox gənc şəxslərarası şəbəkələrin və işəgötürənlə ilkin əlaqələrin qurulması, işəgötürənə öz bilik və qabiliyyətini təqdim etmə, işə qəbul üçün müsahibəyə hazırlanma, ofis işi və s. ilə bağlı müasir bilik və bacarıqlar əldə edib və həmin gənclərdən 600-dən çoxu bu bilik və bacarıqlar hesabına ayrı-ayrı müəssisələrdə işlə təmin ediliblər".

❑ **Ləman MUSTAFAQIZI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

**ABŞ Rusiyadan "S-400" hava hücumundan müdafiə sistemləri alan dünya ölkələrinə xəbərdarlıq edib.**

# Ağ Ev bütün dünyaya qarşı savaşır

## Sülhəddin Əkbər: "Tramp ABŞ-ın qurduğu və liderlik etdiyi qlobal sistemə zərbə vurur"
## Qubad İbadoğlu: "ABŞ eyni vaxtda bütün ölkələri çökdürə bilməyəcək"

Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Noyert keçirdiyi ənənəvi brifinqdə deyib ki, rəsmi Vaşinqton "S-400" sistemləri alan dövlətlərə sanksiya tətbiq edə bilər: "Dünyadakı tərəfdaşlarımız və müttəfiqlərimizin "S-400"lər almasına qarşıyıq".

Bu, faktiki olaraq, ABŞ-ın onlarla ölkə ilə eyni vaxtda savaşa başlaması deməkdir. Belə ki, bundan əvvəl Donald Trampın prezidenti olduğu superdövlət İrana, Rusiyaya, Türkiyəyə, Çinə qarşı iqtisadi savaşa başlayıb. İlk üç ölkəyə konkret sanksiyalar tətbiq olunur, Çinlə isə böyük ticarət savaşı yürüdülür. İki gün öncə Çinin Ticarət Nazirliyi ümumi dəyəri 16 milyard dollar olan ABŞ mənşəli məhsullara 25 faizlik əlavə verginin qüvvəyə mindiyini açıqlayıb. Bundan əvvəlsə ABŞ eyni həcmdə Çin mallarına qarşı 25 faizlik vergi tətbiq etmişdi.

Bundan əlavə, ABŞ hazırda qonşu Kanada və Avropa Birliyi ilə də ticarət sahəsində gərginlik yaşayır, hər iki istiqamətdə məhdudiyyətlər tətbiq olunur.

*ABŞ az qala bütün dünya ilə eyni zamanda savaşa bilərmi? Bu ölkənin hamıya sanksiya tətbiq etməsi özü üçün hansı nəticələr verə bilər?*


Sülhəddin Əkbər


Qubad İbadoğlu

**Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri Sülhəddin Əkbər**in fikrincə, bu savaşda əsas rolu ABŞ-ın sanksiyaları və məhdudiyyətlərinə məruz qalan ölkələrin siyasəti oynayacaq: "Əgər həmin ölkələr öz fəaliyyətlərini koordinasiya edərək, birgə hərəkət edə bilsələr, onda uduzan tərəf ABŞ olacaq. Bu, uzun müddət davam edərsə, xüsusilə də Avropa Birliyi ilə, qarşı tərəf fəaliyyətini koordinasiya edərsə, orta və uzunmüddətli dövrdə ABŞ uduzan tərəf ola bilər. Və artıq bunu ABŞ-da iş adamları, iqtisadi dairələrdə də yazmağa və səsləndirməyə başlayıblar".

**ABŞ sanksiyalarına və məhdudiyyətlərinə məruz qalan tərəflərin öz fəaliyyətlərini koordinasiya etmələri istiqamətində hələlik konkret addımlar nəzərə çarpmır**: "Amma sanksiyalara məruz qalan ölkələrin əksəriyyəti ABŞ-ın qanunsuz addımları ilə bağlı Ümumdünya Ticarət Təşkilatına müraciət ediblər. Digər tərəfdən, əks tədbirlər görülə bilər. Beynəlxalq ticarətdə ödənişin avro ilə aparılmasına başlana bilər. Yəni koordinasiya olacaqsa, uduzan tərəf ABŞ olacaq. Koordinasiya olmayacaqsa, hərə öz bildiyi kimi addımlar atacaq".

**S.Əkbərin sözlərinə görə, əslində Tramp hazırda ABŞ-ın qurduğu və liderlik etdiyi qlobal sistemə, o cümlədən qlobal iqtisadi sistemə zərbə vurmaqla məşğuldur**: "Uzun onilliklər ərzində Vaşinqtonun həyata keçirdiyi siyasət nəticəsində qurulan sistemi Tramp dağıdır. Bu, ilk növbədə böyük mənada - geopolitik, geostrateji, geoiqtisadi baxımdan ABŞ-ın maraqlarına ziddi bir siyasətdir".

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu**nun fikrincə, ABŞ-ın son addımları Tramp hakimiyyətinin ideoloji yanaşmasından irəli gəlir: "Trampın seçkiqabağı əsas vədlərindən bir bundan ibarət idi ki, ABŞ-ın böyüklüyünü həm daxildə, həm də xaricdə sübut edəcək. Onun əsas arqumenti bundan ibarətdir ki, ondan əvvəlki prezidentlər ABŞ-ın rolunu, əhəmiyyətini, yerini azaldıblar və o, ABŞ-ın qüdrətini özünə qaytaracaq. Düşünürəm ki, bu ideologiya ilə də hazırda siyasət yürüdür. Daxildə iqtisadi imkanları genişləndirmək üçün çalışır ki, ticarət müharibələri, tariflərlə iş yerlərinin açılmasını daha da çoxaltsın. Yəni ABŞ mənşəli kapitallı ölkəyə qaytarır, onun vasitəsilə məşğulluğu artırır. Onun ikinci istəyi ondan ibarətdir ki, tarifləri qaldırmaqla daxili istehsalçıların, sahibkarların mənafeyindənm çıxış edir, maraqlarını güdür. Bu da Trampın özünün sahibkarlıq mühitinə bağlılığı ilə əlaqədardır".

**Tramp sanksiyaları iki istiqamətdə tətbiq edir**: "Ünvanlı sanksiyalar konkret şəxslərə, şirkətlərə tətbiq olunur. Bu şəxslər və şirkətlər siyasi hakimiyyətlərə bağlı olanlardır. Hesab edirəm ki, bu mövqeni ABŞ hələ Tramp hakimiyyətə gəlməzdən öncə - Maqnitski Aktını qəbul edərkən ortaya qoymuşdu. Əvvəllər Maqnitski Aktı yalnız Rusiyaya tətbiq olunurdu, Tramp onu qloballaşdırdı, sanksiyaların əhatə dairəsini genişləndirdi.İkinci sanksiya istiqaməti ölkələr və sektorlar üzrədir. Bu sanksiyalar daha çox Rusiya və İrana qarşı tətbiq olunur. Hədəf sanksiyaları o deməkdir ki, bu ölkələrlə yaranmış mübahisələrin həlli üçün Trampın başqa proqramı və ya konsepsiyası yoxdur. Burada ən çox narahatlıq yaradan ABŞ-la Çin arasında gedən ticari müharibədir. Bu, qlobal iqtisadiyyat üçün yeni böhran perspektivləri formalaşdıra bilər".

**Q.İbadoğlunun fikrincə, ABŞ bütün ölkələri eyni vaxtda çökdürə bilməyəcək**: "Çünki bu ölkələrin hər biri dünya iqtisadiyyatında xüsusi yeri olan ölkələrdir. Xüsusilə dünya bazarında neftin qiymətinin yüksək olmasi Rusiya və İran kimi ölkələrə tətbiq olunan sanksiyaların təsirini zəiflədəcək".

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**

# Paşinyanın Qarabağda "xidmət" keçən oğlu barədə ilginc faktlar

## Qabil Hüseynli: "Çox güman ki, o, şənbə-bazar günləri İrəvana qayıdıb atasının bağında dincəlir"

**Ötən ay Paşinyanın oğlunu əsgər göndərməsi bəzi qüvvələr tərəfindən "müsbət nümunə" kimi xarakterizə olundu. Lakin sonradan müstəqil bloggerlərin yazılarından bəlli oldu ki, Paşinyanın oğlu üçün Xankəndində ev axtarılır və o, "hərbi xidməti"ni həmin evdə çəkəcək.**

Bütün hallarda Paşinyan oğlunu Azərbaycan torpaqları olan Dağlıq Qarabağa göndərib və politoloqlara görə, bununla o, planlaşdırdığı oyunu axıra qədər oynaya bilməyib. Onların fikrincə, Paşinyanın qurduğu oyun yalnız Ermənistan cəmiyyətində müəyyən effekt doğurub.

"Paşinyan oğlunu əslində əsgərliyə deyil, istirahətə göndərdi və bunun arxasında da başqa məqamlar var". Bu fikri "Yeni Müsavat"a açıqlamasında **politoloq Qabil Hüseynli** söylədi. O bildirdi ki, Paşinyan ermənilərin gözünü boyamaq, oğlunun da vətənpərvər obrazını yaratmaq üçün belə bir addım atıb: "Televiziyaların, KİV-lərin iştirakı ilə guya oğlunu əsgərliyə göndərirmiş kimi şou hazırladı. Bu şou ilə oğlunun guya Dağlıq Qarabağdakı qardaşlarına kömək üçün getdiyini bəyan etdi. Dağlıq Qarabağa gələndən sonra isə onun üçün münasib olan ev axtarıldı. Yəni birbaşa kazarmaya yollanmadı. Ona çox ciddi surətdə qulluq edilir və döyüş hazırlığı təlimlərinə də cəlb edilmir. Çox güman ki, onun oğlu şənbə və bazar günləri İrəvana qayıdıb atasının bağında dincəlir. Bütün bu addımlar həm dünya ictimaiyyətini çaşdırmaq, həm də Azərbaycanda müəyyən bir ajiotaj yaratmaq üçün edilmiş diplomatik manevr idi. Bundan əlavə, Paşinyanın oğlunu hərbi xidmətə göndərməsi, onun bundan əvvəl dediyi sözlərə də ziddir. Deyirdi ki, Ermənistan Azərbaycana qarşı döyüş əməliyyatlarında öz ordusu ilə iştirak etməyib. Bu səbəbdən də Qarabağdan azərbaycanlıların qovulması, guya ətraf 7 rayonun işğal edilməsi, 60-70 minlik erməninin içərisindən çıxan, sayları 2 min nəfərə çatan qondarma "Dağlıq Qarabağ özünü müdafiə qüvvələri" tərəfindən həyata keçirilib. Ondan soruşmaq lazımdır ki, əgər belədirsə və onlar buna qadirdirsə o zaman öz oğlunu oraya nə üçün göndərir? Dağlıq Qarabağda sadəcə, qocalardan və qadınlardan ibarət dəyərsiz qüvvə var. Bunun da gücü ilə nə isə etmək olmaz. Paşinyanın oğlunu əsgər göndərməsi ola bilsin ki, erməni cəmiyyətində hansısa rol oynadı. Ancaq dünya miqyasında və Azərbaycanda nifrətlə qarşılandı. Həqiqi çağırış məsələsində bunlar oyun oynayırlar".



**Politoloq Paşinyanın ümumi fəaliyyəti barədə də danışdı**: "Paşinyan bəzi islahatları həyata keçirməyə çalışır. O, rüşvətə və korrupsiyaya qarşı mübarizə aparır və onun mübarizəsinin müəyyən nəticələri var. Bir qisim oliqarxlardan alınan pulları Ermənistan xəzinəsinə daxil edib. Bütün bunların fonunda ölkədə yaradılan xof mühitinin təsiri altında rüşvətin əl-ayağı müəyyən qədər yığışdırılıb. Lakin bu, o demək deyil ki, ermənilər xoş günə çıxıblar və tamamilə istədikləri yaşama nail olublar. Hələ ciddi iqtisadi islahatlar, struktur islahatları həyata keçirilməlidir. Ölkə iqtisadiyyatına valyuta, xaricdən investisiya cəlb edilməsi işini qaydaya salmaq lazımdır. Hazırda ermənilərin bir qara quruşu yoxdur. Səthi islahatlar, korrupsiya və rüşvətə qarşı əməliyyatlar gedir. Ancaq yeni iş yerlərinin açılması, əhalinin maddi rifahının qaldıra biləcək sosial xarakterli layihələrin həyata keçirilməsi məsələsi görülmür. Bir müddət hay-küylə baş qatmaq mümkün olacaq. Lakin bütün bunlar çox çəkə bilməz. İkincisi, real hakimiyyətin bütün rıçaqlarını Paşinyan ələ keçirə bilməyəcək. Baş nazir postu önəmli olsa da o, tikan üstündə oturmuş adam kimidir. İstənilən vaxt parlament qiyamı nəticəsində Paşinyanı devirib, yerinə başqasını təyin edə bilərlər. Ermənistandan çox ciddi və ziddiyyətli proseslər gedir. Bu ziddiyyətli hallar isə getdikcə daha da dərinləşməkdədir. Nəticədə ciddi qarşıdurma da yarana bilər. Ən azından yeni parlament seçkilərinə qədər oliqarxlar da, Qarabağ klanı da öz qüvvələrini səfərbər edərək Paşinyanın qarşısında ciddi cəbhə formalaşdırmaq niyyətindədir. Artıq bunun üçün ciddi addımlar atılır".

❑ **Əli RAİS,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

**Azərbaycanın ən yeni tarixində dövlət məmurlarına qarşı törədilmiş qanlı cinayətlərdən birindən 50 gün ötür. 2018-ci il iyulun 3-də odlu silahla silahlanmış Rusiya vətəndaşı Yunis Səfərov Azərbaycanın 2-ci böyük şəhəri olan Gəncənin icra başçısı Elmar Vəliyevə hücum çəkdi. Bu qanlı olay ölkənin diqqəti enerji böhranına qarışdığı bir vaxtda baş tutdu. Mingəçevir İstilik Elektrik Stansiyasının (İES)blokunda qəza səbəbindən paytaxt Bakı şəhəri də daxil olmaqla Gəncə və digər böyük şəhərlər də enerjisiz qalmışdı. Belə bir vaxtda Elmar Vəliyevə qarşı terror aktı törədildi, o və mühafizəçisi Qasım Aşbazov yaralandılar. Qasım Şahbazov Azərbaycanda müalicə olunub və hazırda evində müalicəsini davam etdirir. Elmar Vəliyev isə ilkin müayinə və cərrahiyyə əməliyyatlarından sonra İsraildəki "Rambam" klinikasına aparılıb. Hayfa şəhərində yerləşən bu klinika dünyaca məşhurdur.**



# Gəncədəki qanlı terrordan 50 gün keçdi

## Əməliyyat tədbirləri davam etdirilir, cinayətin bütün iştirakçıları cəzasını alacaq

İcra başçısının klinikanın neyrocərrahiyyə şöbəsində müalicəsini davam etdirdiyi iddia olunur. Elmar Vəliyevə qarşı qanlı aksiyadan sonra onun qardaşı, hərbi prokuror Xanlar Vəliyev açıqlama vermişdi. O, Gəncə olaylarını radikal müxalifət və dini-ekstremist təşkilatlarla xarici dövlətlərin xüsusi xidmət orqanlarının törətdiyini bildirib.

Rəsmi məlumatlara görə, Y.Səfərovun terror aktını törətməkdə əsas məqsədi Azərbaycanda şəriət qanunları ilə idarə olunan İslam dövləti qurmaq, bundan ötrü bir neçə tanınmış dövlət məmurunu öldürməklə respublikada xaos yaratmaq, hakimiyyətin zorla ələ keçirilməsi olub. Yada salaq ki, Yunis Səfərovun həbsindən 1 gün sonra daha 11 nəfər saxlanılıb.

Həmin şəxslər - Tərtər sakinləri Firudin Etibar oğlu Zeynalov, Cəfər Mürsəl oğlu Zalov, Gəncə sakinləri Mahir Əziz oğlu Əzizov, Hamlet Ramiz oğlu Abdullayev, Fikrət Balaqardaş oğlu Ələkbərov, Ramil Famil oğlu Paşayev, Ceyhun İsrail oğlu Salahov, Rasim Hafiz oğlu Mustafayev, Elmir Savadxan oğlu Zahidov, Yevlax sakini Muraz Mətləb oğlu Əliyev və Bakı sakini Rauf Rövşən oğlu Həsənovdur. Bu sui-qəsddən bir neçə gün sonra sosial şəbəkələrdə iyulun 10-da Gəncədə, Sumqayıtda aksiya keçirilməsi ilə bağlı məlumatlar yayılıb. Rəsmi məlumata görə, 150-200 nəfərlik radikal dini qrupun keçirmək istədiyi aksiyada polis zabitləri İlqar Balakişiyev və Səməd Abbasov qətlə yetirilib.

Elmar Vəliyevə qarşı törədilən sui-qəsdlə bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürməyə cəhd və dövlət xadiminin həyatına sui-qəsd etmə maddələri ilə cinayət işi başlanıb. Yunis Səfərovla cinayəti planlamış Gəncə şəhər sakini Ağa Hüseyn oğlu Sərxani "Aslanlar" tərəfindən məhv edilib. İstintaq müəyyən edib ki, o , 2016-cı ildə Suriya ərazisində silahlı birləşmələrin tərkibində döyüş təlimi keçib, mütəmadi olaraq İrana səfərlər edib. Elmar Vəliyevə qarşı törədilən terror aktından ötən müddət ərzində "Aslanlar" bir neçə əməliyyat keçirib. İyulun 3-də hüquq mühafizə orqanları - DİN, Baş Prokurorluq və DTX birgə açıqlama yayaraq Gəncənin icra başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazova qarşı törədilmiş hadisənin terror aktı olduğunu elan edib. Həmin rəsmi açıqlamada Elmar Vəliyevə odlu silahdan atəş açmış Yunis Səfərovun hansı dairələrə bağlılığı da birbaşa olmasa da açıqlanıb. Elmar Vəliyevin qardaşı, Azərbaycan baş prokurorunun müavini, ölkənin hərbi prokuroru olan Xanlar Vəliyev Yunis Vəliyevin anasının erməni və Rusiya xüsusi xidmət orqanlarının əməkdaşı olmasını bildirib. Rusiya vətəndaşı olan Yunis Səfərovun İranda xüsusi təlim keçərək Azərbaycana gəlməsi və belə bir qanlı aktı gerçəkləşdirməsi onun konkret olaraq hansı qrupun maraqlarından çıxış etməsini birmənalı söyləməyə imkan vermir. Yada salaq ki, Gəncədə qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən 2 polis zabiti - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov kəsici-deşici alətlərlə yetirilmiş zərbələr nəticəsində öldürülməsi faktı üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin 120.2.3-cü, 120.2.7-ci, 220.1-ci, 221.3-cü və 228.4-cü maddələri ilə cinayət işi başlanıb. Qanlı cinayəti törətməkdə şübhəli bilinən 2 nəfər - Gəncə şəhər sakinləri 1988-ci il təvəllüdlü, əvvəllər qəsdən adam öldürmə və soyğunçuluq cinayətlərinə görə məhkum olunmuş Rəşad Məmmədəli oğlu Böyükkişiyev və eyni təvəllüdlü Fərrux Xəqani oğlu Qasımov müəyyən ediliblər. Xüsusi əməliyyat zamanı R.Böyükkişiyev öldürülüb, F.Qasımov həbs edilib.




Davam etdirilən prosessual araşdırmalar və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilib ki, törədilən cinayətin icraçısı, hazırda həbsdə olan Yunis Səfərov yaxın münasibətdə olduğu Eldar Orucov, Azər Əliyev, Mahir Əzizov ilə birlikdə Azərbaycanda şəriət qaydaları ilə idarə edilən dövlət qurmaq niyyəti ilə hökumət orqanlarına qarşı partizan müharibəsi aparmaq qərarına gəliblər. Bu məqsədlə onlar 2012-ci ildə xarici ölkələrdən birində döyüş təlimi keçmiş və həmin ilin yaz aylarında Gəncə şəhərinə gələrək şəhər sakini, hazırda həbsdə olan Hamlet Abdullayevdən 1 ədəd "Kalaşnikov" markalı avtomat silah və 1 ədəd "Makarov" markalı tapança alıblar. Lakin həmin dövrdə planlaşdırdıqları cinayətkar əməllər baş tutmadığından silahları Hamlet Abdullayevə qaytarıb ölkəni tərk ediblər. Dini radikalizmə meylli Hamlet Abdullayev həmin silahları və "Marqulin" markalı daha 1 ədəd tapançanı onunla eyni radikal dini baxışları bölüşən və 2018-ci il iyulun 21-də keçirilən xüsusi əməliyyat zamanı silahlı müqavimət göstərdiyinə görə məhv edilən Anar Bağırovla birgə Gəncə şəhər sakini Pərviz Bayramovdan və 2015-ci ildə avtomobil qəzasında ölmüş Məhəmməd Əzizovdan 500 manata alıb. Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı terror aktı törətməkdə təqsirləndirilən Yunis Səfərov həmin silahları müvəqqəti qaytardıqdan sonra Hamlet Abdullayev "Makarov" tapançasını pul müqabilində Pərviz Bayramova və "Kalaşnikov" avtomatını dayısı, Gəncə şəhər sakini Aydın Qurbanova verib, "Marqulin" markalı tapança isə Anar Bağırovda qalıb. Aydın Qurbanovun və Anar Bağırovun gizlətdikləri silahların və sursatın yerinin müəyyən edilməsi məqsədilə onların Gəncə şəhərində qeydiyyatda olduqları ünvanlarda axtarış aparılıb. Nəticədə Aydın Qurbanovun yaşadığı binanın çardağından "Kalaşnikov" avtomatı, ona aid 56 ədəd patron və 1 ədəd sandıqça, Anar Bağırovun yaşadığı binanın zirzəmisindən "Marqulin" markalı tapança, ona aid 47 ədəd patron, 132 ədəd avtomat patronu, "Teksun" yağ qabının içində gizlədilmiş daha 273 ədəd avtomat və tapança patronu, 8 ədəd sandıqça, habelə mənzilindən radikal dini məzmunlu materiallar olan və faşizmi təbliğ edən 36 ədəd kompakt disk aşkar edilərək götürülüb. Aydın Qurbanov və Pərviz Bayramov təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib. Müvafiq cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri intensiv surətdə davam etdirilir.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yenì Müsavat"**

# "Müxalifət Qərbə həmişə "ağ atlı oğlan" kimi baxıb"

## Fərəc Quliyev: "Bu cür davranışlar sadəcə ölkəyə ziyan gətirir"

**Ölkə müxalifətinin Avropa ölkələrinin rəhbərlərindən, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrindən gözləntiləri özünü daim büruzə verməkdədir. Bunu xaricdən Azərbaycana gələn qonaqların səfəri vaxtı hər zaman görmək olur. Bir növ bu düşərgə demokratiyanı sanki belə şəxslərin timsalında görür.**

Son olaraq, avqustun 25-də Bakıya səfər edəcək Almaniya kansleri Angela Merkelin gəlişi öncəsi bu məsələ gündəmə gəlib. Artıq sosial şəbəkələrdə və müxalifətə yaxın mətbuat orqanlarında xanım kanslerə yönəlik "tələblər" yer almaqdadır. Konkret olaraq, ona yönəlik Bakıda siyasi məhbuslar məsələsini, eləcə də, vətəndaş cəmiyyətinin problemlərini və digər məsələləri qabartmaq çağırışları səslənməkdədir. Alman kanslerin Azərbaycanda müxalifət liderləri, vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşməsinin vacibliyindən də söz açılır.



**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev**in qənaətinə görə, ölkə daxilində bəzi qruplar siyasi alverçilərə çevriliblər: "Mənə qəribə gəlir ki, ölkə daxilində özlərini radikal müxalifət adlandıran, əslində dövlətçiliyə qarşı müxalifətçilik edən qruplar var ki, siyasi alverçilərə çevriliblər. Siyasi məhbus adı altında bir çoxlarının həbsxanada qalmasını təmin edib, bunu da gündəmə çıxarıb pul qazanmaqla məşğuldurlar. Yalançı siyahılar tərtib edirlər, ölkə daxilində guya bu problemlər var deyib, bunu ölkə xaricinə çıxarmaqla məşğuldurlar. Baxın, özlərini radikal müxalifət adlandıranlar bir vərəq konseptual məqalə yazıb ortaya qoyublar? Alternativ bir proqram belə ortaya qoymayıblar. Birisi ölkəyə gəlir, onlarla görüşmür, gileylənməyə başlayırlar. Siyasi məhbus adı altında bu və ya digər məsələlərdən danışmağın hamısı oyundur. Bir məmuru korrupsiya adı altında ittiham edirlər, sonradan o həbs ediləndə dərhal siyasi məhbus elan edirlər. Bu cür davranışlar sadəcə ölkəyə ziyan gətirir. Cəmiyyət artıq bu cür hallardan bezib və onun üçün də belə qüvvələrin arxasınca getmirlər".

**AĞ Partiya başqanı Tural Abbaslı** hesab edir ki, Angela Merkelin regiona səfərinin siyasi tərəfi lazımından artıq şişirdilir: "Almaniyanın regiona siyasi təsir imkanlarını və ya məhz elə Azərbaycana təsir imkanlarını nəzərə alsaq görərik ki, xanım baş nazirə bəslənilən ümidlər bir az ifrata varılır. Ümumiyyətlə, Azərbaycan müxalifəti hər zaman başda Amerika olmaqla Qərbə bir xilaskar və ya "ağ atlı oğlan kimi" kimi baxıb. Təbiidir ki, elə hər dəfəsində də istər Qərb, istərsə də Amerika müxalifətin nəinki gözləntilərini doğrultmayıb, tam əksinə xalqın, demokratiyanın, müxalifətin maraqlarını iqtidara satıb. Yəni bir sözlə desək Qərb dairələri Azərbaycanın narazı elektoratından iqtidarla alver predmeti kimi sui-istifadə edib. Öz maraqlarını təmin edən kimi isə bütün günü dünyaya hayqırdıqları "demokratik dəyərlərin" arxasından qaçıblar. Xüsusən son zamanlar istər regionumuzda, istərsə dünyada, istərsə də əsasən qardaş Türkiyədə baş verən siyasi hadisələr bizlərə Qərbin, Amerikanın əsl siyasi mahiyyətini bir daha açıq şəkildə göstərir. Aydın görünür ki, bunlar öz dövlətlərinin maraqlarına görə İraqın, Suriyanın, Livanın məhv olmasına, Türkiyə xalqının iqtisadi çətinliklərlə çökdürülməsinə, Afrika ölkələrini aclığın ağuşunda itməsinə hazırdırlar. Məncə istər Azərbaycan müxalifəti olaraq biz, istərsə də xalqımız artıq bu Qərbə qarşı "çəhrayi xülyalarından" vaz keçməlidir. Artıq hər birimiz anlamalıyıq ki, bu dairələri nə Azərbaycan, nə Azərbaycandakı demokratik vəziyyət, nə Qarabağ probleminin ədalətli həlli məsələsi maraqlandırmır. Onların yeganə məqsədləri hansı yolla olursa olsun özlərinin və təmsil etdikləri dövlətlərin maraqlarını təmin etməkdədir. Biz AĞ Partiya olaraq, siyasi səhnəyə çıxdığımız gündən bu illüziyalardan uzaq olmuşuq və digər dövlətlərə və onların "dəstəyinə" bel bağlamamışıq. Bizim hər zaman ümid etdiyimiz, dəstəyini və rəğbətini qazanmağa çalışdığımız və uğurunda mübarizə apardığımız yeganə qüvvə Azərbaycan xalqı olub, indi də odur, gələcəkdə də o olacaq".

❑ **Cavanşir ABBASLI, "Yenì Müsavat"**




# Avropanın üç nəhəng hava şirkəti İrana embarqo qoyur

## Türkiyə hava yolları şirkətləri daha çox sərnişin daşıyacaq

**Xəbər verdiyimiz kimi, Avropanın nəhəng aviaşirkətləri ticari səbəbləri əsas gətirərək, Tehran səfərlərini sentyabr ayından etibarən dayandıracaqlarını açıqlayıblar. “British Airways”, “Air France” və Hollandiya krallığı Hava Yolları (KLM) İrandan uçuşları dayandıracaq. Avropalı üç hava yolu şirkəti Tehran səfərlərini dayandırma qərarını tətbiq etməyə başladığı zaman İran bazarında Türkiyə hava yolları şirkətləri daha çox sərnişin daşıyacaq.**

Bu isə Türkiyə hava yolları şirkətlərinin İran bazarında sərnişin sayını artırmasının qabağını açıb. Qərb şirkətlərinin bu qərarı qüvvətə mindiyi zaman, Tehrandan dünyanın bir çox nöqtəsinə uçuşlar gerçəkləşdirən türk şirkətlərinin sərnişin sayını təxminən 20 faiz artacağı gözləyir.

Türkiyə hava yolu şirkətləri ilə İstanbul üzərindən uçuşlar edən iranlı sərnişinlərin sayı sentyabr ayından daha çox artacaq.

İranın milli aviaşirkəti olan İran Hava Yolları ilə özəl hava yolu şirkətlərinin Avropaya səfərlərinin yetərsiz olması, İran bazarında İstanbuldan hər saatda dünyanın bir çox nöqtəsinə bağlantılı uçuşlara şərait yaradan türk şirkətlərin sərnişin sıxlığı faizlərinə də müsbət təsir edəcək.

Qərbli şirkətlərin uçuşlarını dayandırma qərarının qüvvəyə minməsindən sonra Avropa aviaşirkətləri ilə uçan sərnişinlərin böyük əksəriyyəti artıq Türkiyə şirkətləri ilə İstanbuldan keçmək üzrə Avropanın, eləcə də dünyanın hər nöqtəsinə uçuşlar gerçəkləşdirəcək. Avropa xaricində tranzit olaraq Amerikaya gedən bir çox İran əsilli sərnişinlər də bu halda Türk Hava yolları şirkətinin xidmətindən istifadə edəcək.

Xüsusən də çox sayda İran əsilli insanın yaşadığı Paris və Los Anceles ilə Tehran arasında İstanbul tranzit olmaq şərtilə sərnişinlər daşınacaq. “Pegasus” Hava Yolları gündə Tehrandan İstanbul Sabiha Gökçen Hava limanına bir səfər təşkil edərkən Parisə iki, Amsterdama üç və Londona dörd dəfə səfər gerçəkləşdirir. THY isə biri Sabiha Gökçən olmaq üzrə Tehrandan beş uçuş gerçəkləşdirir. Türk hava yolu şirkətləri aralarında çox sayda tranzitin də olduğu İrandan sərnişin daşıyır.

Britaniyanın “British Airways” hava yolları şirkəti “uçuş əməliyyatları hazırda kommersiya baxımından sərfəli olmadığına” görə gələn aydan İrana reysləri bağlayacağını bəyan edib.

Londondan Tehrana son uçuş sentyabrın 22-də həyata keçiriləcək və bunun ertəsi gün həmin təyyarə Britaniya paytaxtına qayıdacaq. “British Airways” Tehrana birbaşa uçuşları 2016-cı ilin sentyabrında bərpa etmişdi. Həmin vaxt, 2015-ci il nüvə sazişinin imzalanmasından sonra İranın Qərb ölkələri ilə münasibətləri qalxan xətlə inkişaf edirdi.

Birbaşa uçuşlar bundan əvvəl 2012-ci ildə Tehranla Qərb arasında münasibətlərin pisləşməsinə görə dayandırılmışdı. İranın Londondakı səfiri Hamid Baeidinejad Twitter postunda yazıb ki, “tələbatın yüksək olmasına” baxmayaraq uçuşların dayandırılması “təəssüf” doğrur.

Ötən ay Hollandiyanın KLM şirkəti sentyabrın 24-dən İrana uçuşları dayandıracağını elan etmişdi. KLM də buna səbəbin “kommersiya üzrə neqativ nəticələr” olduğunu bildirib.

British Airways şirkətinin Tehrana uçuşları ləğv etməsindən bir neçə ay əvvəl ABŞ prezidenti Donald Tramp Birləşmiş Ştatların 2015-ci ilin sazişindən çıxdığını və Tehran üzərinə sanksiyaları bərpa olunacağını bəyan etmişdi.

**Britaniya və başqa Avropa ölkələri öz şirkətlərini ABŞ-ın mümkün sanksiyalarından çəkilə biləcək zərərdən qorumağa çalışırlar. Avropa İttifaqı İranla biznesi davam etdirəcəyini bildirsə də, bir çox özəl şirkətlər İranı tərk etməyə başlayıb.**

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# Rusların “donan” 5 milyardı-bank hesabları nə zaman dondurula bilər?

## Əkrəm Həsənov: “Bu sahədə istinad olunacaq hər hansı ümumi sənəd yoxdur, lakin...”

**İsveçrənin ikinci ən böyük bankı olan “Credit Suisse” ABŞ-ın sanksiyalarının təsiri altına düşən Rusiya vətəndaşlarının 5 milyard dollarlıq (5 milyard İsveçrə frankı) bank hesablarını dondurub. Bunun bankın özünün sanksiyaların təsirinə məruz qalmaması üçün edildiyi deyilir.**

“Yeni Müsavat” Rusiya mətbuatına istinadən xəbər verir ki, bankdan verilən açıqlamada hesabların dondurulmadığı, sadəcə, reklassifikasiya edildiyi bildirilib. Yəni hesablar “idarəetmə”dən “etibarlı saxlanma” rejiminə keçiriliblər. Rusiyalı ekspertlərin fikrincə isə, adının necə qoyulmasından asılı olmayaraq, hesablar faktiki olaraq dondurulub. Hazırda Rusiya vətəndaşlarının həmin hesablardan vəsaitlərini çıxarmaq imkanının olub-olmadığı bilinmir.

“Credit Suisse” bəyan edib ki, beynəlxalq maliyyə sistemi tənzimləyiciləri ilə Rusiyaya qarşı sanksiyaların həyata keçirilməsində əməkdaşlıq etməyə hazırdır. Xatırladaq ki, 2009-cu ildə “Credit Suisse” ABŞ tərəfindən 536 milyon dollar məbləğində cərimələnib. Səbəb isə bu olub ki, bank sanksiyalara baxmayaraq iranlı müştərilərə xidmət etdiyini ABŞ-dan gizlətmişdi.

İsveçrənin eyni aqibətlə üzləşmək istəməyən daha iki iri bankı - UBS və “Julius Baer” də sanksiya rejiminə sadiqliyini bildirib, amma müştərilərdən hansılarınsa hesablarının dondurulduğunu açıqlamayıblar.

Qeyd edək ki, iyun ayında ABŞ sanksiyalarına görə İsveçrə bankları rusiyalı biznesmen Viktor Vekselberqin bir neçə milyard franklıq şəxsi hesablarında olan pul vəsaitləri üzərində əməliyyatları qadağan edib. Bunlar “UBS”, “Credit Suisse” və “Julius Baer” bankları idi. Vekselberqin təkcə şəxsi hesabları bloklanmayıb. Biznesmenin eyni zamanda bir sıra iri İsveçrə şirkətlərindəki səhm paketlərinə əlçatarlığı məhdudlaşdırılıb. Bu dəfə adlar açıqlanmasa da, söhbətin məhz ABŞ sanksiya siyahısında olan rusiyalı varlılardan getdiyi güman olunur.




Beynəlxalq praktikada sanksiyalara görə müxtəlif dövlətlərin vəsaitlərinin dondurulması halları baş verib. Məsələn, ABŞ-ın İrana qarşı bundan əvvəlki sanksiyaları zamanı İran Mərkəzi Bankına məxsus 38 milyard dollar müxtəlif banklarda dondurulmuşdu. Bundan əlavə, İran dövlətinə məxsus 10 milyard dollardan yuxarı neft pulları da dondurulmuşdu. İrana qarşı sanksiyalar götürüldükdən sonra 2016-cı il ərzində bu ölkə 55 milyard dollarını geri ala bilmişdi.

Bu yaxınlarda isə İsveçrə bankları Özbəkistanın sabiq rəhbərinin qızı Gülnara Kərimovaya məxsus 800 milyon dolların ölkə hökumətinə qaytarılması barədə qərar qəbul ediblər.

Vətəndaşların bank hesabları sanksiyalardan kənarda hansı hallarda dondurulur? Suala cavab verən **bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov** deyir ki, bu kimi məsələlərdə hər ölkə öz qanunvericiliyini, həmçinin digər ölkələrlə və beynəlxalq təşkilatlar çərçivəsində imzaladığı müqavilələri, konvensiyaları əsas götürür: “Məsələn, Azərbaycanın Konstitusiyasında qeyd olunur ki, imzalanan konvensiyalar, bağlanan müqavilələr də qanunvericiliyin tərkib hissəsi hesab olunur. İsveçrə banklarının rusiyalılara məxsus hesabları dondurması da ABŞ bağlanmış hansısa müqavilədən irəli gələ bilər. Bu sahədə hamının istinad edə biləcəyi ümumi qanunvericilik yoxdur”.

**Ə.Həsənova görə, əslində bankların heç biri kiməsə məxsus hesabların dondurulmasında maraqlı deyillər:** “Sadəcə, ölkələrin və xüsusilə də bankların seçim imkanları da yoxdur. Dollar bu gün dünya valyutası rolunu oynayır, hamı ondan bu və ya digər şəkildə asılıdır. Hamı dollarla əməliyyatlar sistemindən uzaqlaşdırılmaqdan qorxur. Bu, ölkələr və banklar üçün çox ciddi itkilər demək olar”.

**Azərbaycan qanunvericiliyində bank hesablarının dondurulması yalnız məhkəmə qərarı ilə mümkündür:** “Bunun üçün mütləq məhkəmə qərarı olmalıdır. Məhkəmə qərarı da müxtəlif səbəblərdən ola bilər - hesab sahiblərinin borcu ola bilər, hesablarındakı vəsait borcun ödənməsinə yönəldilər. Yaxud da şəxsə qarşı hansısa cinayət işi qaldırılmış ola bilər. Beynəlxalq səviyyədə hansısa konvensiya yoxdur ki, imzalamış olaq və belə bir hüquq versin. Yalnız bu var ki, Azərbaycan xarici dövlətin məhkəmə qərarını icra edə bilər. Bunun üçünsə qərarı bizim Ali Məhkəmə verməlidir. Tutalım ki, ABŞ məhkəməsi Rusiyaya məxsus bank hesablarının dondurulması barədə qərar qəbul edərsə, Azərbaycan Ali Məhkəməsi həmin qərarın tanınıb-tanınmaması barədə qərar verə bilər”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# Rusiyadan silah alan ölkələr hədəfdə-Azərbaycanı nələr gözləyir?

## Üzeyir Cəfərov: “Nə qədər sanksiya hədələri edirsə etsin, bizə ciddi təsiri olmayacaq”

**Birləşmiş Ştatlar Rusiyadan S-400 zenit raket kompleksləri alacaq bütün ölkələrə sanksiyalar tətbiq edə bilər. “Sputnik Azərbaycan” verir ki, bunu ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Noyert keçirdiyi ənənəvi brifinqdə bildirib.**

“Biz bütün dünyada tərəfdaş və müttəfiqlərimizin S-400 zenit raket komplekslərin mümkün almasına qarşıyıq” - deyə, Nauert qeyd edib.

Türkiyədən başqa S-400 alışına görə digər ölkələrə də sanksiya tətbiq oluna bilərmi sualını Nauert müsbət cavablandırıb.

**O, həmçinin Türkiyəyə S-400-a raketlərinin vaxtından əvvəl çatdırılmasına görə də narahat olduğunu bildirib:** “Əgər bu belədirsə, bu bizi narahat edəcək. Türkiyə kimi NATO üzrə müttəfiq S-400-dən istifadə edirsə, bu bizim siyasətimizə ziddir”.

Bu açıqlamalardan sonra Rusiyadan silah alan ölkələrdən biri kimi Azərbaycanın da sanksiyalara tuş gəlib-gəlməyəcəyi məsələsi gündəmə gəlib.



**Hərbi ekspert Üzeyir Cəfərov** bildirdi ki, Amerikanın son zamanlar apardığı siyasət dünyanı şoka salır: “Amerika prezidentinin qeyri-standart qərarları dünyada ciddi narahatlığa səbəb olur. Açığı, arzularımdan biri yaxın vaxtlarda onun impiçment məsələsinin reallaşmasıdır. İnanıram ki, ABŞ cəmiyyəti belə bir qeyri-ciddi siyasətçidən yaxın vaxtlarda yaxasını qurtaracaq. Baxmayaraq ki, onun vəkili Amerikada üsyan ola biləcəyini deyir. Amma heç bir üsyan olmayacaq, buna tam əminəm. Birləşmiş Ştatların son iki yüzillik tarixində belə lazımsız siyasət aparan rəhbəri olmayıb. Rusiya silahları ilə bağlı verilən qərar NATO-da müttəfiqi olan Türkiyəyə yönəlik addımdır. Son vaxtlar konkret ünvan göstərilir ki, Türkiyə düz yolda deyil, bu ölkə böyük səhvlərə yol verir. Sadəcə, qardaş ölkənin gözünə digər ölkələri də qatır. Onun müttəfiqləri bu məsələdə hələ ki, ona dəstək verməyə məcburdurlar. Amerikanın Rusiya ilə son illərdə korlanan münasibətləri, Çinə qarşı 25%-lik dəyər vergisinin tətbiqi, eyni zamanda, Çinin də Amerika məhsullarına qarşı 25% dəyər vergisi tətbiq etməsi göstərir ki, Tramp aləmi bir-birinə qatıb. Gedən proseslərin Azərbaycana nə təsiri ola bilər? Ölkəmiz çox balacadır. Sözsüz ki, bu qərarların təsiri olacaq. Düşünürəm ki, indiyə qədər Rusiyadan S-300 silahları alan ölkələrə qarşı sanksiyalar tətbiq edilməyəcək. Əgər indiyə qədər biz və ya digər bir ölkə bu silahları alıbsa, Amerikaya görə bu silahlardan istifadə etməsinlər? Belə istəyirsə, o zaman ABŞ bu silahları əvəz edə bilən özünün istehsalı olan raket komplekslərini bu ölkələrə versin yaxud onları əvəzləsin. Azərbaycanın elə də ciddi bir probleminin olacağını düşünmürəm. Bilirsiniz ki, Azərbaycan müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi nümayəndə heyəti ilə Belarusda olub. Belarus ən müasir raket-artilleriya kompleksləri, eləcə də, indiyə qədər aldıqlarımız və bundan sonra alacaqlarımız müdafiə sistemlərimizi möhkəmləndirmək üçün ciddi rol oynayacaq. ABŞ-ın yerində olmayan iddiaları sadəcə vəziyyəti bir qədər gərginləşdirir. Atılan yanlış addımlar Amerikanın özünə ziyan gətirəcək. Tramp getsin öz biznesi ilə məşğul olsun. Sanksiyalar əvəzinə gedib BMT-nin baş katibi ilə görüşsün və bu qurumun qərarlarını icra etməyən dövlətlərlə məşğul olsun. Amerika nə qədər sanksiya hədələri edirsə etsin, bizə ciddi təsiri olmayacaq. Çünki alternativ silahlar almaq yolları var. Maliyyə imkanları normal olan Azərbaycan kimi dövlətlərlə ələqələr qurmağa çalışan ölkələr hər zaman olub. Dünya sadəcə normal məcraya qayıtmalıdır”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

**Ötən ay Səbayel Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunan Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) gətirilib və Bakı meriyasının başçının müavini təyin edildi. Hazırda BŞİH-nin başçısı postu yenə boşdur, həm struktur, həm kadr islahatlarının nə vaxt aparılacağı isə məlum deyil.**



# BŞİH Abutalıbovdan sonra "əriyir"

## Memarlıq və Şəhərsalma Baş İdarəsindən sonra meriyada Ticarət və Xidmət Departamentinin mətbuat xidməti ləğv olunub

Məlumat üçün onu da qeyd edək ki, BŞİH rəhbərliyində 3 əsas vəzifə var - başçı və iki müavin. Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Rauf Pənahov ötən il iyulun 20-də vəfat edib. Həmin vaxtdan onun da yerinə təyinat olmamışdı. Digər müavin isə yuxarıda da qeyd etdiyimiz kimi, başçının səlahiyyətlərini icra edirdi. Bakı şəhər icra başçısı postuna təyinat olmaması ilə bağlı bir çox iddialar var. İddialara görə, Bakıda Böyük Şəhər Bələdiyyəsinin formalaşdırılması planı var. Bu səbəbdən də şəhər başçısı postuna təyinatın olmadığı qeyd olunur. Məsələ ilə bağlı rəsmi açıqlama olmasa da, bu versiya hələ də gündəmdədir.

Onu da qeyd edək ki, mətbuatda irəli sürülən versiyalarda indiyə kimi BŞİH-ə başçı kimi bir neçə şəxsin adı hallanıb. Onlardan biri Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovdur. Məlumatlara görə, Niyazi Bayramov gənclər və idman naziri Azad Rəhimovun qudasıdır. Digər versiyaya görə, Abutalıbovun yerini "Bakı Ağ şəhər" layihəsinin və "Bakond" şirkətinin baş direktoru Ruslan Sadıxov tuta bilər. Onunla bağlı da mətbuatda xeyli materiallar dərc olunub. Abutalıbovun yerinə əsas namizədlərdən biri kimi isə "AzərGold" qapalı səhmdar cəmiyyətinin sədri Zakir İbrahimovun adı çəkilir.

Yeni yaradılmasına baxmayaraq, "AzərGold" qızıl yataqlarının kəşfiyyatı, qızıl və gümüşün hasilatı və ixracı sahəsində xeyli işlər görüb. Onun fəaliyyəti sayəsində Azərbaycanın qeyri-neft ixracatında qızıl ikinci yerə yüksəlib.

Avqustun 1-də isə prezident İlham Əliyev şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb. Fərmanla Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və Şəhərsalma Baş İdarəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyinə verilib.

Dünən isə məlum olub ki, BŞİH-in strukturu olan Bakı Şəhər Ticarət və Xidmət Departamentinin mətbuat xidməti ləğv olunub. "Report"un xəbərinə görə, bununla ələqadar olaraq departamentin mətbuat xidmətinin rəhbəri Əliabbas Bağırov işdən çıxarılıb. O, məlumatı "Report"a təsdiqləyib. Ə.Bağırov bildirib ki, hələlik heç bir vəzifəyə təyin edilməyib və hazırda işsizdir.

**Bakı Şəhər İcra Hakimiyyətinin strukturu olan Bakı Şəhər Ticarət və Xidmət Departamenti qanunvericiliyə müvafiq olaraq mülkiyyət formasından asılı olmayaraq ticarət, ictimai iaşə, məişət və digər xidmət müəssisələrinin lazımi istismarına və əhaliyə xidmətin təşkil edilməsinə nəzarəti həyata keçirən, səlahiyyətləri daxilində istehlakçıların hüquqlarının müdafiəsini təmin edən dövlət orqanıdır.**

❑ **ORXAN, "Yeni Müsavat"**

# Hacı Mazan çətin durumda: həbs təhlükəsi var

## Hüquqşünas: "Məsələ xuliqanlıqla bağlıdırsa, əlbəttə ki, cinayət məsuliyyətinə də cəlb oluna bilər..."

**Bir müddətdir ki, "Hacı Mazan" kimi tanınan iş adamı Ramazan Zeynalovun adı mətbuatın gündəmindən düşmür. Belə ki, avqustun 16-da xəbər yayıldı ki, ona məxsus avtomobilin 44-AA-444 dövlət nömrə nişanlı avtomobil yol polis tərəfindən saxlanılıb.**



"Yeni Müsavat" olaraq əldə etdiyimiz məlumata görə, Hacı Mazana məxsus avtomobil yol hərəkəti qaydalarını pozduğu üçün saxlanılıb və müvafiq qaydada cərimələndikdən sonra buraxılıb. Lakin bakupost saytı məlumat yayıb ki, Hacı Mazan polis bölməsinə aparılıb. Sayt məsələ ilə bağlı görüntüləri də yayıb və qeyd olunub ki, hadisə avqustun 3-də baş versə də, görüntülər indi üzə çıxıb.

Xatırladaq ki, avqustun 3-də Hacı Mazan Xəzər TV-nin əməkdaşlarına hücum etmiş, daha sonra isə onun şirkətinin inşa etdiyi binanın sakinini öz evində döymüşdü. Hadisədən sonra DİN-in "102" xidmətinə məlumat verilib və hadisə yerinə Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis bölməsinin əməkdaşları cəlb edilib. Onlar jurnalistlərə və ev sahibinə hücum çəkən iş adamını polis bölməsinə apardılar. Hacı Mazanla birlikdə hücumda iştirak etmiş adamları da bölməyə aparılıb. Onlar bölmədə müvəqqəti saxlanma kamerasına salınsalar da, sonradan Ramazan Zeynalov polisdə işləyən qohumlarının vasitəsilə həyətə çıxarılıb.

Hazırda faktla bağlı Bakı Şəhər Prokurorluğunda araşdırma aparılır, tərəflərin ifadələri alınır.

"Yeni Müsavat"a danışan **hüquqşünas Əsabəli Mustafayev** bildirib ki, baş verən hadisə ilə bağlı qanunvericilikdə konkret müddəalar mövcuddur: "Çəkilişi aparanlar rəsmən jurnalistlər olublar. Yəni onlar sıradan bir vətəndaş deyillər və bu şəxslər işləri, peşələri çəkiliş aparmaqdır. Belə olan halda isə jurnalistin çəkiliş aparmasının qarşısını almaq olmaz. Burada yalnız şəxsi həyat məsələsi, müdaxilə varsa o, istisnadır. Konstitusiyamızda qeyd olunub ki, adamın razılı olmadan onu şəkilini çəkmək, səsini yazmaq olmaz. Ancaq bu, birbaşa olaraq jurnalistin peşə fəaliyyətini həyata keçirməsi ilə bağlıdır və orada konkret suallar da verilir. Bizdə jurnalistin peşə fəaliyyətinə maneə olmaqla bağlı məsuliyyət var. Başqa bir tərəfdən isə hadisə həm də ictimaiyyətin gözü qarşısında baş verib. Buna görə də baş verən prosesləri xuliqanlıq kimi də qiymətləndirə bilərlər. Eyni zamanda yayılan videodan görünür ki, Ramazan Zeynalov çəkiliş aparan şəxslərin əllərindən mikrofonu alıb, çəkilişə mane olmaq üçün texnikaya əl atır. Bu da araşdırılmalıdır ki, həmin texnikalara zərər dəyib, yoxsa yox. Eyni zamanda orada söyüşün olub-olmaması da araşdırılmalıdır. Bütün bunlar hallar aydınlaşdırıldıqdan sonra Ramazan Zeynalova verilən cəza da məlum olacaq. Konkret olaraq ancaq peşə fəaliyyətinə maneəçilik faktı ortaya çıxacaqsa, onun cəzası başqa olacaq. Yaxud xuliqanlıq və digər sadaladığım məsələhətlərdən birinə tövsif oluna bilər. Bütün məsələlər araşdırmadan asılıdır".

**Hüquqşünas bildirib ki, araşdırmanın nəticəsindən asılı olaraq, Hacı Mazan ən yaxşı halda cərimə ediləcək**: "İstintaqın necə getməsi və hansı faktlar olması barəsində konkret məlumata sahib olmadığımız üçün tam qiymətini vermək də bizim üçün çətindir. Hər şey məhkəmədən asılıdır. Baxırsan ki, bir maddə ilə kimsə məsuliyyətə cəlb olunan zaman onu cərimə edirlər, yaxud da şərti cəza verirlər. Eyni maddə ilə başqası məsuliyyətə cəlb edilən zaman isə onu həbs edirlər. Yəni burada artıq eynilik praktikası yoxdur, müxtəlifdir. Bütün bunların fonunda konkret söyləmək də olmaz ki, Zeynalovu cərimələyəcəklər, yoxsa həbs edəcəklər. Oxşar əmələ görə müxtəlif cəzalar tətbiq oluna bilər. Ancaq hesab edirəm ki, ən aşağıs, Ramazan Zeynalov cərimə oluna bilər. Əgər xuliqanlıqla bağlı olarsa, əlbəttə ki, o, cinayət məsuliyyətinə də cəlb edilə bilər. Nəticədə isə ya şərti, ya azadlıqdan məhrum etmə, yaxud da azadlığın məhdudlaşdırılması kimi cəzalara məhkum olunma mümkündür. Əgər jurnalistin aparatına, kamerasına və ya digər texnikasına ziyan vurubsa, bu, artıq əmlakın məhv edilməsidir. Buna görə isə başqa cəza var".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Həbsdən çıxan İlqar Məmmədov hər gün həkimə gedir

## Natiq Cəfərli: "Bir neçə yerdə həkim müayinəsindən keçdi və bütün cavabları aldıq"



**REAL Partiyasının sədri İlqar Məmmədovun azadlığa buraxılmasından 12 gün ötür. 5 il yarımlıq məhbus həyatı ilə vidalaşdığı gündən sonra mediaya hər hansı açıqlama verməyib. Azad olunduğu gün mətbuat konfransı keçirəcəyini və bütün açıqlamalarını orada verəcəyini bildirən REAL rəhbərinin vəd etdiyi mətbuat konfransından da hələ bir xəbər yoxdur.**

**Partiyanın İdarə Heyətinin üzvü Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında gələn həftə mətbuat konfransının vaxtının müəyyən ediləcəyini bildirdi: "Üzümüzə gələn həftə mətbuat konfransının gününü müəyyən edib bu barədə ictimaiyyətə məlumat verəcəyik. Yaxın zamanlarda bu konfrans mütləq keçiriləcək. İlqar Məmmədov həbs müddəti, indiki hüquqi sürəclə, REAL və gələcək planlarla bağlı bütün suallara geniş şəkildə cavab verəcək, tezislər səsləndiriləcək. İlqar azadlığa çıxdıqdan sonra görüşlərin sayı həddindən artıq çoxdur. Onunla görüşmək, ona gözaydınlığı vermək, eləcə də, onu təbrik etmək istəyənlərin sayı kifayət qədər çoxdur. Görüş qrafiki İlqarda həddən artıq sıx olur. İlqarın REAL-ın daxilində gedən proseslərlə tanış olmaq üçün zamana ehtiyacı var idi. Çünki o həbs ediləndə REAL hərəkat formatında idi, həm üzvlərin, həm də məclislərin sayı kifayət qədər az idi. Amma keçən müddət ərzində həm üzvlərin, həm də regional məclislərin sayı kifayət qədər çoxalıb. Həbsdən çıxanda özünün də dediyi kimi REAL-ı tanımaqla məşğuldur. Paralel olaraq bu sürəc də gedir. Çox güman ki, mətbuat konfransında bütün bunlar haqqında ətraflı danışılacaq. Gələcək planlarımız, görəcəyimiz işlər barədə detallı məlumat veriləcək".

**N.Cəfərli hazırda İ.Məmmədovun dişinin müalicəsi ilə məşğul olduğunu söylədi:** "Demək olar hər gün həkimdə olur. Diş müalicəsi prosesi yekunlaşmaq üzrədir. Bir neçə yerdə həkim müayinəsindən keçdi və bütün cavabları aldıq. Şükür ki, ciddi heç bir problem yoxdur. Amma belə ağrıları və digər bu kimi problemlərin qarşısını almaq üçün bəzi profilaktik tədbirlərə ehtiyac var. Çox güman ki, bu yöndə də həkimlər tərəfindən qrafik müəyyən ediləcək. Hazırda özünü çox gümrah hiss edir. Sadəcə onu görüşlər çox yorur. Gündə ən azı 7-8, 10 belə görüşlər keçirməyə məcbur olur. Dəfələrlə İlqarın özü də, bizlər də səmimi şəkildə qeyd etmişik ki, REAL-ın, İlqarın tanıtımı bu həbsdən sonra daha güclü və dalğalı şəkildə oldu. Beş il yarımdan artıq bir şəxsin həbsdə saxlanılması, orada da öz duruşunu göstərməsi, eləcə də, günahsız olduğu barədə daim bəyanatlarını səsləndirməsi onun və partiyamızın daha çox tanınmasına səbəb oldu. Təbii ki, İlqara uzun müddət ailəsindən və dostlarından ayrı qalması çox mənfi hal oldu. Gənc bir insanın həyatından beş il yarımdan artıq müddət vaxt almaq çox ağrılı bir prosesdir. Siyasətçi İlqar Məmmədovun həbs edilməsi özünün və REAL-ın siyasi kapital yığmasına, insanlar tərəfindən daha çox sevilməsinə səbəb oldu".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# O işin sənədi

Zamin HACI
zaminhaci@gmail.com

**Bir nəfər keçmiş icra başçısı ölüb, tərcümeyi-halını dərc ediblər: çoxsaylı mənasız vəzifə və titullarla yanaşı adam Gürcüstan Yazıçılar Birliyinin fəxri üzvü də olmuşdur. O qurumun üzvü olmağın hansısa önəmi ağlıma gəlmir, böyük ehtimal bizim AYB-nin tayı, sovetdən qalma relikt idarədir. Sadəcə, nədənsə ağlıma gəldi böyük gürcü yazıçısı Nodar Dumbadze hazırda qəbrində iki-üç dəfə fırlanmalıdır. Qoderzi Çoxelinin məzarı isə ümumiyyətlə darmadağın olmalıdır.**

Yeri gəlmişkən, həmin başçının hər hansı ədəbi yaradıcılığı bizə məlum olmasa da rayon rəhbərliyi zamanı camaata elədiyi orijinal zülmlər yadımızda qalmışdır. Bəlkə bunu da hansısa yaradıcılıq növü saymaq olar. Dünyada belə şeylər çoxdur. Misal üçün, Endi Uorholl konserv bankasını rəngləyib camaata baha qiymətə sırıyırdı. Biri unitazı muzeyə qoyurdu. Başqası lap qabağa gedib (bəlkə də "arxaya gedib" yazmalıydıq) öz nəcisini sənət əsəri kimi satırdı. Bizdə də bənzər təcrübələr olmuşdur. Yadıma gəlir, 90-cı illərdə müxbirimiz Xaçmaz-Qusar zonasında diyarşünaslıq muzeyinə getmişdi, orada həmin vaxt məşhur olan taxılçı-deputatın ayaqqabılarına rast gəlmişdi. Eksponatın altından yazılıbmış ki, Filankəs müəllim filan ildə bizim rayonda arpa əkərkən bu sapoqlarda tarlanı gəzmişdir.

Görürsənmi? Belənçik xatirələr çoxdur. Hətta ola bilər kiminsə siqaretinin kötüyü əziz yadigara dönsün. Füzuli bu yerdə yaxşı deyibdir: "Dedim ey gül, mənə bir tel ver o çin zülfündən, Dedi bu xəstə üçün nafeyi-çin olmalıdır". Bəh-bəh. Düzü nafeyi-çin nə deməkdir, heç bilmirəm, ancaq şeirdə gözəlliyə baxın!

Yadımdan çıxmamış, bir də o vaxtlar deyirdilər ki, bu icra başçısı rayondakı kəndlərdən birinə öz dədəsinin adını veribdir. Nə qədər düzgün xəbər idi, deyə bilmərəm, ancaq kəndin adı doğrudan dəyişdirilmişdi. Bu da millətin özündən asılıdır. İstəyər kəndə icra hakiminin şoferinin adını qoyar. Ya da cangüdəninin pişiyinin. Demokratik dövlətdə yaşayırıq. AXC-Müsavat dövründə heç gecələr gəzməyə çıxa bilmirdik, nəinki kəndin adını dəyişəsən. Pis günlər idi, tuf-tuf, getsin gəlməsin. Neçə nəfəri məhkəməsiz-zadsız yerindəcə məhv eləyirdilər. Deputatxananın yarısını qırmışdılar. Rəhmətlik Elçibəy isə tribunada oturub heç nə olmamış kimi siqaret çəkir, külünü deputatların başına tökürdü. O vaxt bəyə dedim, a bəy... Nə isə, uzun söhbətdir, adam yazdıqca qanı qaralır.

Dəyişən dəyərlərə örnək olaraq yazda ölkəmizdə keçirilən bir toy mərasimi göstərilə bilər. Tanınan oliqarx-məmurlarımızdan biri qızına toy eləyirdi, toyun əziz qonaqlarından biri isə Ukraynanın birinci Maydan hərəkatının lideri, hərçənd sonra olduqca uğursuz prezident Yuşşenko idi. Təsəvvür elə, beş-on il qabaq bütün dünya buna necə ümidlə baxırdı, Kiyevin havasını "azadlıq havası" kimi konservaya doldurub (Uorhol-un yeri məlum) hər yerə suvenir kimi satırdılar, bu isə indi Bakıda toy toğlusuna dönmüşdür. O vaxt bunun mitinqində çıxış eləyən İsa Qəmbər infarkt olmasın, nə eləsin?

Sonda bir aktual lətifəni dərc edək. Respublikadakı hotel və istirahət mərkəzlərindən çoxlu qəmli-nisgilli, ağrı-acılı xəbərlər alırıq, deyirlər oralara kişi və qadını eyni anda buraxmırlar, nikah kağızı tələb edirlər. Özü də bu, bir növ irqçi yanaşma imiş, çünki yalnız azərbaycanlılara tətbiq edilir, xarici turistlərə aid deyil. Qısası, lətifə: "Bir kişi və qadın hotelə gedirlər. Qapıda onlardan nikah kağızı istəyirlər, bunlar da evli olmur. Kişi cibini eşələyir, ovçular cəmiyyətinin üzvlük biletini tapır, verir qapıçıya. Qapıçı bunları buraxır. Az sonra bileti oxuyub arxalarıyca qaçır, qapını döyüb qışqırır: "O işi görməmisinizsə, görməyin. Bu sənəd ona icazə vermir".

# ABŞ hərbçiləri İrəvanda - Paşinyan Putinin səbrini sınağa çəkir

## Düşmən ölkə intriqalı durumla üz-üzə: Qərbə can atan erməni hökuməti Rusiyaya qarşı sanksiyaların altını çəkməyə başlayıb; İran əleyhinə sanksiyaların da "küləyi" İrəvanı vura bilər; Paşinyan Tehrana səfər edəcəkmi?




**Bu gün Almaniyanın kansleri Angela Merkel hazırkı postda ilk dəfə Bakıya səfə edəcək. Alman kansler Azərbaycana Ermənistandan təşrif buyuracaq. Dünən o, İrəvanda işğalçı ölkənin rəsmi şəxsləri, o cümlədən baş nazir Nikol Paşinyanla görüşüb. Maraqlıdır ki, Angela Merkel İrəvanda ikən ABŞ və Böyük Britaniya Silahlı Qüvvələrinin nümayəndələri İrəvanda olublar.**

"Yeni Müsavat"ın erməni mətbuatına istinadən verdiyi məlumata görə, Ermənistan Müdafiə Nazirliyinin dəvəti ilə baş tutan səfər avqustun 20-dən 24-ə kimi, yəni 4 gün çəkib. Nümayəndə heyətinin üzvləri Ermənistan Müdafiə Nazirliyində görüşlər keçiriblər. Bildirilir ki, bu görüşlərdə əsas hədəf "silahlı qüvvələrdə intihar hallarını önləmək, "qaynar xətlərin" fəaliyyətini modernləşdirmək, psixoloji köməyin verilmə imkanlarını və bərabər imkanların təmin edilməklə bağlı ekspert müzakirələri aparmaq" olub.

Lakin mövzu humanitar xarakterli olsa da, gerçək budur ki, Ermənistanın yeni inqilabi hökuməti Moskvanın artan qıcığına rəğmən, ABŞ-la, NATO ilə yaxınlaşmağa can atır, onlarla müxtəlif səviyyəli təmasları aybaay artırır.

*****

"Yeni Müsavat" xatırladır ki, Ermənistanın hazırkı müdafiə naziri David Tonoyan da yeni hökumətin əksər üzvləri kimi qərbyönlü kadr olaraq tanınır. Bunu da qeyd edək ki, ABŞ-ın İrəvandakı səfirliyi öz əməkdaşlarının sayına və ərazisinə görə bölgədə ən iri diplomatik nümayəndəlik hesab edilir. Rusiyalı analitiklərdən biri hətta az öncə belə ifadə işlətmişdi ki, səfirlik ərazisində rahatca 2 minlik hərbi birləşmə yerləşdirnmək olar.

Bundan əlavə, işğalçı ölkədə xeyli sayda qərbyönlü, Amerikaya bağlı QHT fəaliyyət göstərir və onların sayı ildən-ilə çoxalır. Bu da öz növbəsində Ermənistanın ictimai-siyasi mühitinə Amerika təsirinin getdikcə artması deməkdir. Proseslərin bu cür məcrada inkişafı isə heç şübhəsiz, Ermənistanın yeganə hərbi-strateji müttəfiqi və mövcudluq qarantı olan Rusiyanı narahat edir - hərçənd qərbyönlü baş nazir N.Paşinyan Moskvaya sadiqlik andı içməkdə davam edir.

Rusiyadan söz düşmüşkən, bu arada Kremlə qarşı ABŞ sanksiyalarınəın "küləyi" artıq Ermənistanı da vurmağa başlayıb. Belə ki, musavat.com-un erməni mediasına istinadən verdiyi xəbərə görə, rusiyalı oliqarx-milyarder, Vaşinqtonun "qara siyahısı"nda olan Oleq Deripaskanın Ermənistandakı zavodunda kütləvi ixtisar başlayıb.

Məlum olduğu kimi, Vaşinqton tərəfindən tərtib edilən "Kreml məruzəsi"ndə 210 rusiyalı biznesmenin adı yer alıb. Onların arasında Kremllə sıx bağlantıları olan Roman Abramoviç, Oleq Deripaska, Yuri Kovalçuk, Yelena Baturina kimi isimlər də var. Ayrı sözlə, sanksiyaların önəmli bir ucu Ermənistana dəyəcəkdi və artıq dəyməyə başlayıb.

Xəbər verilir ki, işğalçı ölkədə 2000-ci ildən bu yana fəaliyyət göstərən "Rusal Armenal" Qapalı səhmdar cəmiyyəti Deripaskanın "Rusal" şirkətinə məxsusdur. "Rusal" özü də eyni milyarderə aid olan "EN+" holdinqinə daxildir. "Rusal Armenal" Qafqazda və Mərkəzi Asiyada alüminium folqalarını istehsal edən tək şirkət sayılır. Ermənistanın ABŞ-a ixracatının 70%-ni məhz "Rusal-Armenal" şirkəti tərəfindən istehsal olunan alüminium folqaları təşkil edir. Təkcə 2017-ci ildə şirkət ABŞ-a 47 milyon dollarlıq məhsul göndərib. Ermənistan mətbuatı sentyabr ayının 1-dən başlayaraq şirkətdə kütləvi ixtisarlaırn aparılacağını yazır. Zavod rəhbərliyi ABŞ-a ixracatın və beləliklə gəlirlərin azaldığını bəyan edib.

*****

Erməni mediasına danışan iqtisadçı Movses Aristakesyan ABŞ sanksiyalarının əsasən korrupsiyalaşmış ölkələrin iqtisadiyyatlarına tətbiq olunduğunu qeyd edib. Onun sözlərinə görə, Ermənistanın keçmiş hakimiyyəti strateji obyektləri Rusiyanın və rus oliqarxlarının mülkiyyətinə çevrimməli idi.

"Əvvəlki iqtidarın rəhbər orqanları belə strateji obyektləri rusların əllərinə təslim etməli idilər. Biz həm iqtisadi, həm də sosial təhlükəsizliklə bağlı suverenliyimizi itirmişik", - erməni iqtisadçı bildirib. Aristakesyan çıxış yolu kimi indiki hökumətin vaxtilə Kremldən gələn sifarişlər və siyasi təzyiqlərlə Rusiyaya verilən zavodların yenidən milliləşdirilməsini təklif edib.

Lakin bu, elə də asan məsələ deyil və enində-sonunda Rusiyanın Ermənistandakı "ayağını" tapdamaq anlamına gələcək. Onsuz da Rusiya KTMT baş katibi Yuri Xaçaturov və eks-prezident Robert Köçəryanın həbsi məsələsindən dolayı Paşinyan hökumətinə qarşı qəzəblidir. Bundan əlavə, Ermənistanı İran əleyhinə yeni ABŞ sanksiyaları ilə bağlı da çətin durum gözləyir.

Bəzi məlumatlara görə, indi də Amerikanın qəzəbinə tuş gəlməməkdən ötrü baş nazir Nikol Paşinyan özünün İran səfərini təxirə salmaq, yaxud onu maksimum uzatmağa çalışır. Təbii ki, Tehran da Paşinyan iqtidarının İran siyasətinə etdiyi düzəlişləri diqqətlə izləyir, buna adekvat cavablar hazırlayır. Yeri gəlmişkən, gələn ay Paşinyan ABŞ-a səfərə hazırlaşır.

*****

Beləcə, Ermənistan bir yandan Paşinyan iqtidarı vasitəsilə ABŞ-a yaxınlaşmaq kursu aparmağa çalışırsa, ikinci yandan, Rusiyanı siyasi-hərbi və təhlükəsizlik qarantı altında qalmağın və "nəfəslik rolu" oynayan İranla dostluğun altını çəkməyə, Kremlə və Tehrana qarşı Amerikanın sərt sanksiyalarının bədəlini bölüşməyə başlayıb.

**Bu vəziyyət ta o vaxta kimi davam edəcək ki, Paşinyan hökuməti xarici siyasətlə bağlı "iki stulda" oturmaq kursundan imtina edəcək. Yəni Paşinyan və komandası ya göründüyü kimi olacaq, ya da olduğu kimi görünməli olacaq. Üçüncü yol yoxdur.**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Bu gün Merkel Bakıya gəlir - xanım kansler nələri müzakirə edəcək?

## Almaniya kanslerinin son olaraq ölkəmizə gəlməsi onu deməyə əsas verir ki, Cənubi Qafqazla bağlı əsas müzakirələr Azərbaycanda olacaq

**Almaniya kansleri Angela Merkel Gürcüstanda rəsmi səfərdədir. Avqustun 23-də onu Tbilisi beynəlxalq hava limanında Gürcüstanın xarici işlər naziri David Zalkaliani və bu ölkənin Almaniyadakı səfiri Elquca Xokrişvili qarşılayıblar.**



**A.Merkelin nümayəndə heyətinin tərkibinə kanslerin xarici siyasət və təhlükəsizlik üzrə müşaviri Yan Heker, maliyyə və iqtisadi siyasət üzrə məsləhətçisi Lars-Hendrik Ryoller, Avropa siyasəti üzrə məsləhətçisi Uve Korzepius və Kansler Aparatında Cənubi Qafqaz bölməsinin rəhbəri Matias Lyutenberq daxildirlər. Rəsmilərlə təmasdan sonra kansler Tiflis Dövlət Universitetində olub.**

"Rusiya keçmiş sovet respublikalarındakı vəziyyəti çətinləşdirir. Gürcüstanın timsalında Cənubi Osetiya və Abxaziyanı, Moldovadakı problemi göstərmək olar. Azərbaycanda da Ukraynada olan problem var".

Strateq.az bildirir ki, bu sözləri Almaniyanın kansleri Merkel Gürcüstanda, Tbilisi Dövlət Universitetində çıxışı zamanı bəyan edib. Onun sözlərinə görə, Rusiya anlamalıdır ki, Avropa İttifaqı və NATO onun düşməni deyil: "Almaniya təkcə Gürcüstan, Azərbaycan və Ukrayna ilə yox, həmçinin Rusiya ilə çox yaxşı əlaqələrə malik olmaq istəyir".

Kansler Rusiyanın dünyada mühüm ölkə olduğunu bildirib: "Almaniya Rusiya ilə yaxşı münasibətlərə malik olmağı arzulayır. Avropa və Rusiya yaxşı əməkdaşlıq edirlər. Xüsusilə qeyd etmək istərdim ki, Avropa İttifaqı və NATO Rusiyanın düşməni deyillər. Almaniya Gürcüstanın NATO-ya inteqrasiyası prosesini dəstəkləyir. Amma açıq danışmaq istəyirəm. Bu mərhələdə Gürcüstanın Alyansa qısa zamanda daxil olacağından danışmaq olmaz".

O, eyni zamanda Gürcüstanı NATO ilə yaxınlaşma kursunu sürdürməyə və bu istiqamətdə addım-addım irəliləməkdə davam etməyə çağırıb.

Angela Merkel avqustun 24-də günün ikinci yarısında İrəvana gəlib. Virtualaz.org "Sputnik Armeniya"ya istinadən bildirir ki, Almaniyanın hökumət başçısını aeroportda Ermənistanın baş naziri Nikol Paşinyan qarşılayıb.

**Bakı səfərindən nə gözləyək?**

Almaniya kansleri bu gün isə Azərbaycana gəlir. AFR-dəki mənbənin "Turan" agentliyinə verdiyi məlumata görə, iki ölkə liderinin danışıqları, birgə mətbuat konfransı və nahar saat 10:15-dən 13:10-a qədər davam edəcək.

Daha sonra Merkel 1990-cı ilin yanvarında sovet qoşunlarının çıxarılması zamanı həlak olanların və Qarabağ müharibəsi iştirakçılarının dəfn olunduğu Şəhidlər Xiyabanını ziyarət edəcək.

Saat 14:10-dan 15:00-a qədər Merkel işgüzar dairələrin nümayəndələrinin iştirakı ilə keçiriləcək iqtisadi məsələlərə dair dəyirmi masada iştirak edəcək, tədbir başa çatdıqdan sonra Berlinə yola düşəcək.

Mənbənin məlumatına görə, Merkel Bakıda ikitərəfli iqtisadi əlaqələrin inkişafı, Azərbaycan və Aİ arasında əlaqələrin inkişafı məsələlərini müzakirə etmək niyyətindədir.

"İnsan hüquqları mövzusuna gəlincə, Merkel ənənəvi olaraq xarici tərəfdaşları ilə danışıqlarda insan hüquqları, demokratiya və qanunun aliliyi məsələlərinə toxunur" deyə, Almaniya hökumətindəki mənbə qeyd edib və avqustun 12-də müxalifətçi İlqar Məmmədovun azad edilməsini "müsbət əlamət" adlandırıb.

Bundan başqa, Merkelin Bakıya səfəri zamanı Avropaya enerji resurslarının nəqli mənbələrinin şaxələndirilməsi kontekstində Cənub Qaz Dəhlizinin həyata keçirilməsi məsələləri diqqət mərkəzində olacaq. Merkel həmçinin Qarabağ nizamlanması məsələsinə də toxunacaq. "Almaniya Aİ-dən olan tərəfdaşları ilə birlikdə ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar aparılmasını və Aİ-nin Cənubi Qafqazda xüsusi nümayəndəsinin bu danışıqda iştirakını dəstəkləyir. Berlin Azərbaycanı və Ermənistanı bu münaqişənin dinc, razılaşdırılmış həlli yolunu tapmağa çağırır", - deyə mənbə qeyd edib.

Qeyd edək ki, hələ günlər öncədən xanım kanslerin Bakı səfəri ətrafında çoxsaylı müzakirələr yaranıb.



Gedən müzakirələrdə əsas diqqəti hökumətyönlü mətbuat orqanlarında bu səfərlə bağlı olan yazılar çəkir. Belə ki, Merkelin Cənubi Qafqaz, ən çox da Azərbaycan səfəri iqtisadi yöndə təhlil edilir.

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** bildirdi ki, Merkelin səfəri iqtisadi və siyasi baxımdan, eləcə də, Almaniyanın dünyada baş verən proseslərə formalaşan yeni münasibətləri baxımından çox əhəmiyyətlidir: "Merkel digər ölkələrə də səfər edib və öz mövqeyini nümayiş etdirib. Əgər onun Cənubi Qafqaz səfəri daha çox iqtisadi mahiyyət daşıyırsa, o zaman bir sual meydana çıxır, Almaniya Ermənistandan hansı iqtisadi dividentləri qazanmağı düşünər? Ermənistanın nəyi var ki, ondan Almaniyanın da bir iqtisadi ələ qələri olsun? Gürcüstan daha çox Azərbaycanın, yəni məlum kəmərlərin hesabına ayaqda duruşa gətirə bilən bir ölkədir. Amma siyasi cəhətdən hələ də sabitlik qazana bilən bir dövlət deyil. Merkelin bu səfəri çərçivəsində son olaraq ölkəmizə gəlməsi onu deməyə əsas verir ki, onun qarşısına qoyduğu vəzifələrin müzakirəsi daha çox Azərbaycanda olacaq. Ölkəmiz Avropanın enerji təchizatı, xüsusilə, təbii qazla təmin olunmasında mühüm rol oynayır. Hazırda Avropa Birliyi ilə Amerika arasında ciddi fikir ayrılıqları var. Böyük Britaniya artıq birliyi tərk edib. Belə bir məqamda ittifaqın üzvü olan Almaniya kimi ölkə çalışır ki, özünə daha çox tərəfdaş toplasın, bu tərəfdaşla siyasi və iqtisadi yöndə əlaqələr qursun. Almaniya ilə Türkiyənin iqtisadi əlaqələrində müəyyən problemlər gözlənilir. Çünki Amerikanın atdığı son addımlar hər iki dövlət üçün iqtisadi çətinliklər yaradıb. Çox şükürlər olsun ki, cənab prezidentin yürütdüyü uğurlu siyasət, atılan addımlar nəticəsində həm iqtisadi gücümüzü, həm də siyasi sanbalımızı saxlayırıq. Əməkdaşlıq etdiyimiz dövlətlərdən tək fayda götürmürük, əksinə onlara fayda da veririk. Bu baxımdan Merkelin bu səfəri hər iki tərəf üçün önəmlidir. Siyasi və iqtisadi yöndə güclü olan Almaniya kimi bir dövlətdən hər zaman faydalanmaq istəyirik, faydalanırıq, faydalanacağıq da. Yəqin ki, burada imzalanan sənədlərdə bunun bir daha şahidi olacağıq".

**Politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a xanım siyasətçinin səfərini bu cür şərh etdi: "Almaniya əhalisinin sayına Avropa İttifaqının birinci dövləti, Avropanın birinci, dünyanın dördüncü iqtisadiyyatıdır. Lakin sön dövrlərdə, xüsusilə də Birləşmiş Ştatların Almaniyanın ənənəvi iqtisadi tərəfdaşlarına sanksiyalar tətbiq etməsindən sonra ölkənin ümumdaxili məhsulunda (ÜDM) ənənəvi artım nəzərə çarpmayıb. 2018-ci ilin ilk 6 ayının yekunlarına görə, ÜDM-də 2011-2017-ci illərin rekord göstəricilərinə rəğmən geriləmə baş verib. Digər tərəfdən, Almaniyanın Avropanın əsas qazpaylayıcı şəbəkəsinə çevrilməsini nəzərdə tutan "Şimal axını-2" layihəsinin taleyi sual altındadır. Bu layihə Avropa İttifaqının üçüncü enerji paketi ilə ziddiyyət təşkil etməklə yanaşı ittifaqın üzvü və strateji tərəfdaşı olan ölkələrə ciddi ziyan vura biləcəyi üçün gündəlikdən tamamilə çıxarıla bilər. Bütün bunlar, eyni zamanda Almaniyanın müstəqil güc mərkəzi kimi qlobal proseslərə qatılmaq niyyəti kansler Angela Merkelin Cənubi Qafqaza səfərinin əsaslandıran amillərdən biridir. Qeyd edim ki, səfər haqqında rəsmi məlumatların yayıldığı zaman kəsiyindən bir müddət öncə Merkel dünya düzəninin ciddi təzyiq altında olduğunu və Almaniyanın baş verənlərə müşahidəçi qalmayacağını bildirmişdi. Qənaətimə görə, Almaniya kanslerinin Cənubi Qafqaza səfərində sadaladığım bütün amillər rol oynayır. Angela Merkelin səfər çərçivəsində səsləndirdiyi bəyanatlar, xüsusilə də Rusiyanın maraqlarının kəsişdiyi məsələlərlə ilə bağlı kifayət qədər ehtiyatlıdır. Xüsusilə də, Abxaziya və Cənubi Osetiya problemini əsas gətirməklə Gürcüstanın yaxın zamanlarda NATO-ya üzv ola bilməyəcəyini vurğulaması da diqqətə alınmalıdır. Almaniya kanslerinin Gürcüstanda verdiyi bəyanatlardan ən önəmlisi isə hesab edirəm ki, ərazi bütövlüyü prinsipi ilə bağlıdır. Rusiya ordusunun Cənubi Osetiya və Abxaziyadan çıxarılmasına çağırış da bu kontekstdən Gürcüstan üçün mühüm önəm daşıyır. Ümid edirəm ki, beynəlxalq hüququn təməl prinsiplərinə münasibətdə Gürcüstanda səsləndirilən mövqe Azərbaycanda da nümayiş etdiriləcək. Əks təqdirdə Almaniyanın, Merkelin də bəyan etdiyi kimi qlobal düzəni təzyiq altından çıxarmağa heç bir şansı olmayacaq. Cənubi Qafqazda iqtisadi baxımdan Almaniya üçün önəmli olan yeganə dövlət Azərbaycandır. Nə Gürcüstan, nə də Ermənistan Almaniyanın maraqlarını cəlb edə biləcək iqtisadi potensiala malik ölkələr deyillər. Adlarını vurğuladığım ölkələri Almaniyanın və Avropa İttifaqının maliyyə dəstəyi və uzunmüddətli yatırımlara daha çox maraqlandırır. Səfər şübhəsiz ki, həm iqtisadi, həm də siyasi motivlidir. Bu, Almaniya kanslerinin səsləndirdiyi bəyanatlarda da öz əksini tapıb. Almaniya ilə Azərbaycan arasında həm iqtisadi, həm də siyasi münasibətləri genişləndirmək üçün perspektivlər kifayət qədərdir. Bu səfər ilk növbədə münasibətlərin qarşılıqlı faydalılıq prinsipi əsasında inkişafına töhfə verə bilər. Səfər çərçivəsində enerji və nəqliyyat dəhlizləri çərçivəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələrin aparılması da gözlənilir. Baxmayaraq ki, Almaniya kansleri səfərdən öncə Rusiya qazının daha ucuz olduğunu vurğulayıb, amma hesab edirəm ki, bu yanaşma daha çox iqtisadi məsələlərin müzakirəsi müstəvisində əlverişli mövqe əldə edilmək üçün sərgilənib. Çünki "Şimal axını-2" layihəsinin Avropa İttifaqı tərəfindən bloklanması perspektivinin yüksək olması, Almaniyanı alternativ enerji mənbələri axtarışına sövq edə bilər. Bütün hallarda Almaniya kanslerinin ölkəmizə səfərini iki ölkə arasında dialoqun möhkəmləndirilməsi baxımından önəmli hadisə kimi qiymətləndirmək lazım gəldiyini düşünürəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

# “Öz imkanlarını ümumtürk maraqlarına yönəltmək ürək istər”

## Əkbər Qoşalı: “Bu bizim üçün bir könül işidir, könül işi isə pıçıltı ilə, sakit-sakit danışılınca dadı-duzu qaçmır”

**Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) Məsləhət Şurasının başqanı, Milli QHT Forumu İdarə Heyətinin üzvü Əkbər Qoşalı musavat.com-un qonağıdı. Avqustun 27-də DGTYB-nin təşkilatçılığı ilə Atatürk Mərkəzində “Türk dünyasının vətəndaş cəmiyyəti institutlarının inkişaf modelləri” adlı konfrans keçiriləcək.**



**“Əlbəttə, görüşmə, sarılma və kövrəlmələrin, sevdalı, həvəsli, eşqli olmağın da öz yeri, dərəcəsi var. Ancaq iş görmək də lazımdır”**

Müsahibimizlə bu və ya digər məsələlərlə bağlı söhbət etdik.

***- Ötən ayın sonlarında qardaş Türkiyənin Sakarya valiliyinə bağlı Sapanca elində ikinci türk qurultayı keçirildi. Siz də Azərbaycandan olan nümayəndələr sırasında idiniz. Təəssüratınız necədi bu qurultayla bağlı?***

- Sapancada keçirilən türk dünyası qurultayı bir ictimai qurum tərəfindən təşkil olunması, təşkili forması etibarı ilə xeyli fərqliliklər daşıyırdı. Bu fikri daha öncələr iştirakçısı olduğum bir sıra oxşar qurultaylarla müqayisədə deyirəm. Əlbəttə, fərqlilik heç də, həmişə daha yaxşı olmaya bilər, lakin bir ictimai qurumun, o qurumun könüllülərinin, türk dünyası həqiqi sevdalılarının fərqli bir tədbir təşkil etmək istəyinin özü cəsarətli addımdır və alqışa layiqdir. Bəlkə də, “həqiqi sevdalı” sözü sizə bir qədər qəribə gələ bilər. Orada Turan yolunda ömür qoymuş ailələrin, nəsillərin övladlarını dinlədikcə, bir daha idrak etdim ki, bu sevda ölməzdir. Yaşlı bir əmi öz başına gələnlərdən danışdı, sonra qurultaya qatılmış, cəfalar çəkmiş doğmalarını, ailə üzvlərini göstərdi, həbsxana divarlarının yaşatdıqlarını və yaşatmadıqlarını anlatmağa çalışdı. Başqası Seyid Yəhya Bakuvinin nəslindən olduğunu dedi, bir başqası Krım könlü olması barədə, başqa biri babalarının İrəvandan Anadoluya köç etmə səbəblərindən danışdı. Söhbət, eyni qədəri paylaşan, eyni gələcəyə boylanan insanlar birliyindən gedir. Onlar tribunadan danışmırdılar, heç tribuna tərəfə yaxınlaşmırdılar da. Sadəcə fasilə vaxtı bu söhbətləri künc-bucaqda, çay ikramı zamanı edirdilər. Təsəvvür edin, ev sahibi qurumun - “1978. İstanbul Əhdə vəfa” dərnəyinin başqanını yalnız açılış nitqi söyləyincə və qardaş ölkə təmsilçiləri ilə hədiyyə mübadiləsi zamanı tribunaya, divana yaxınlaşan gördük. O, bəlkə də təkrar çağırışlar olmasa tribuna səmtə gəlməzdi də... Sanki onlar, ömrünü büsbütün türk dövlətçiliyinin əbədi var olması işinə sərf etmiş, tarixdə adı, törəməsi, nişanəsi qalmayan və özlərini “Heç kimlər” kimi təsvir edən dərin fikir və əməl adamlarına bənzəyirdi. Çox təsirli idi. Bilmirəm, bəlkə də bu mənə belə gəlirdi, bəlkə başqa iştirakçılarda da bənzər hisslər oyatdı, ancaq o qurultayı tərtib edənlərə belə gözəlliklər yaraşırdı və şəxsən mən çox yaraşdırdım. Özünü düşünməmək fədakarlıqdır, öz imkanlarını ümumtürk maraqlarına yönəltmək ürək istər.

***- Belə qurultaylar türk dünyasına nə verir?***

- İlk növbədə, tanışlıqlar, yeni əlaqələr, o tanışlıq və əlaqələrdən irəli gələn ikitərəfli, çoxtərəfli işbirlikləri verir. Eyni zamanda fikir, ideya, təcrübə alış-verişi baş tutur, artıq şüarçılıq, bəlağət dövrünün öz yerini sakit, soyuqqanlı çalışmalara verməli olduğu fərq edilir.

Əlbəttə, görüşmə, sarılma və kövrəlmələrin, sevdalı, həvəsli, eşqli olmağın da öz yeri, dərəcəsi var. Ancaq iş görmək də lazımdır. Biz türklər istiqanlı xalqıq, hərəkatlarımızda qabarmalar, şahə qalxmalar, ömrümüzdə fəthlər nişan qoyub, ancaq yenidən diriliş, birlik üçün sakit, soyuqqanlı çalışmaq lazımdır.

Bir-iki misal çəkim, türk dünyası ünvanlı tədbirlərin, qurultayların öz izlərini necə saxladığını göstərək. Bizim təşkilatın tədbirlərində tanış olmuş türk dünyası gənclərindən bir-biri ilə ailə həyatı quranlar, necə deyərlər, üzərlərində Bakı, Azərbaycan yazılı tanışlıqlarını ailə dostluğuna çevirənlər, bir-birinin kitablarını öz türkcələrinə çevirib yayımlayanlar, qardaş ölkə və topluman yeni nəsil yazarlarının güldəstələrini, antolojilərini hazırlayanlar oldu. Yardımlı balası Sərvər Kamranlı ötən il özbək qızımız Şohistə ilə evləndi, bu günlərdə övladları dünyaya gəldi. Deyirəm, adı üstündə Turan övladıdır. DGTYB-nin xətti ilə tatar, qazax, özbək şairlərinin antolojiləri işıq üzü gördü. Astanada qazax yeni nəsil yazarları bizim antolojini yayımladılar. Daşkənddə kitabımız çıxdı, indi qırğız gənc yazarlarının antolojisini hazırlayırıq. Yeri gəlmişkən, qırğız antolojisi barədə çoxdan söhbətimiz olsa da, Sapanca qurultayında qırğız gənc dostlarımız Altınbek və Bekbolatla söhbətlərimiz bu işi nəhayətə yetirdi.

***- Belə başa düşürəm, bu deyilənlər özü də müəyyən təsəvvür yaradır, elə deyilmi?***

- Elədir. Yenidən Sapanca qurultayına qayıtmaq istərdim. Həmin qurultaydakı çıxışınız zamanı türk dilinə, eləcə də, türk xalqları arasında olan çox ciddi problemlərə toxundunuz. Buna hansı zərurəti duydunuz? Qeyd etdiyiniz problemlərin həlli üçün nələr edilməlidir?

- Bəli, ortaq türkcə, ortaq əlifba sahəsində görüləcək çox iş, gediləcək uzun yol var. Bizlərin müstəqil olub, BMT önündə Türkiyə bayrağını qardaş bayraqlarsız qalmaqdan qurtardığımız tarixdən 30 ilə yaxın bir zaman ötüb. Qaldırdığımız problemlər azalmaq xassəsinə malik olsaydı, rahatsız olmazdıq, elə məsələlər var, ya yerində sayır, ya da mənfi yönə doğru artır.

Baxın, türkoloji bir elm sahəsidir, ideoloji axım deyil. Lakin türklər üçün türkoloji elmi, həqiqətləri əldə etmə və gələcəyə daha az itkilərlə, daha dolğun bilgilərlə getməmiz üçün önəm daşımaqdadır. Azərbaycanda türkoloji bir elm sahəsi olaraq sovetlər dönəmində, XX yüzilliyin 20-ci illərində formalaşıb, sonrakı illər boyunca ayrı-ayrı nəşrlərlə, araşdırmalarla məktəbə dönüb. Bu tarix və zaman aşağı-yuxarı digər türk ölkələrinin toplumları üçün də keçərli sayıla bilər.

***- SSRİ-nin 1991-ci ildə dağılmasına və bu tarixin üstündən yetərincə zaman keçməsinə baxmayaraq, türkoloji bir elm sahəsi olaraq “sovet türkolojisi” qəlibindən tam, yaxud arzu edilən səviyyədə çıxmış sayıla bilərmi?***

- Elə ora gəlmək istəyirdim. Türkoloqların çözməli olduğu işlərdən biri də bu olsun gərək. Örnəyi, türkoloji dil, qismən də tarix mövzuları ilə sınırlı qalmamalı, digər zəruri sifətlər də əldə etməli, bütün uyğun əməli çalışma sahələri boyu öz sözünü deməlidir.

Bir mövzu da türkcədən türkcəyə uyğunlaşdırmalarla bağlıdır. Yazarlarımız, özəlliklə gənclərimiz bir çox hallarda bu işi çox asan iş sayıb, çox da bərbad hala salırlar. Türkcələrimizdən əsərlərin qarşılıqlı olaraq başqa türkcələrimizə qazandırılması işi son illər xeyli sürətlənib. Lakin bəzən bu qazandırmanın adı tərcümə, çevirmə kimi yazılmaqdadır. Oysa, Mirzə Ələkbər Sabirin hələ 100 ildən də öncə dediyi şəkildə ifadə etsək, “türkcədən türkcəyə tərcümə nə demək”?

Hələ sovetlər dönəmində mərhum aydınlarımız Xəlil Rza Ulutürk, Məmməd Aslan və başqa şairlərimiz tərcümə yerinə “işləyən”, “uyğunlaşdıran” deyə yazardılar. Bu gün isə, müstəqillik dövrünün uşaqları bir türkcədən digər türkcəyə uyğunlaşdırmaya “tərcümə” deyə bilirsə, bu çox qəribə deyilmi?

***- Avqustun 27-də rəhbərlik etdiyiniz təşkilatın təşkilatçılığı ilə Atatürk Mərkəzində “Türk dünyasının vətəndaş cəmiyyəti institutlarının inkişaf modelləri” adlı konfrans keçiriləcək. Tədbir barədə məlumat verərdiniz. Hazırlıqlar necə gedir?***

- Qardaş ölkə və topluluqlardan gələcək aydınlarla “Türk dünyasının vətəndaş cəmiyyəti institutlarının inkişaf modelləri”ni müzakirə edəcəyik. Onlar DGTYB tərəfindən icra edilən, Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəklədiyi layihə çərçivəsində respublikamıza gəlir, bəziləri isə ilk dəfə Azərbaycanda olacaq.

Artıq “Yeni Müsavat”ın da xəbər verdiyi kimi, paytaxt Bakı və “gənclər şəhəri” fəxri ünvanını daşıyan Sumqayıtın görməli yerləri ilə tanış olacaq qonaqlarımız mədəniyyət və təhsil ocaqlarına, o cümlədən Dövlət Pedaqoji Universitetinə, “HƏDƏF” Liseyinə baş çəkəcək, müxtəlif tədbirlərə qatılacaq.

Qardaş Türkiyədən Qocaeli Bələdiyyəsi Xalqla ilişkilər, basın, informasiya müdiri, Qocaeli Şairlər-Yazarlar Dərnəyi başqanı Alptəkin Cevhərli, Kayseri mərkəzli ANASAN ( - Anadolu Sənətçilər, Şairlər, Ozanlar, Elm adamları Birliyi - C.A.) başqanı, tanınmış ədib Sabit İncə, Qazaxıstan Yazıçılar Birliyinin üzvü, Qazax Dövlət Radiosunun əməkdaşı Janar Aylaş, Qırğız Respublikası Yazıçılar Birliyi nəzdindəki “Nur Borbor” gənc yazarlar qurumunun başqan müavini Akjol Doranbekuli, Özbəkistanın “Gənc Yaradıcılar Birliyi”nin eksperti, türkoloq Şahina İbrahim, habelə Moskvadakı “Şəhriyar” Ədəbi məclisinin yetkilisi Afaq Şıxlı, doğma Təbrizimizdən gənc yazar, araşdırmaçı, “Sancaq” qəzetinin əməkdaşı Ümid Nəccar və başqa nümayəndələrin qatılacağı tədbirlərin fəxri qonağı Saxa (Yakutiya) Yazıçılar Birliyinin başqanı, Rusiya Yazıçılar Birliyinin katibi, Saxa prezidentinin keçmiş müşaviri, Xalq şairi Natalya xanım Xarlampyevadır. 26 avqustda saat 11-də müvəqqəti olaraq Sumqayıtda yerləşən Qubadlı Mədəniyyət Evində tanınmış sənətçimiz Namiq Mənanın başçılıq etdiyi Azərbaycan Yazıçılar Birliyi Qubadlı bölgə təşkilatının ev sahibliyi ilə görüş planlaşdırılır. Görüşdə Natalya Xarlampyevanın bu günlərdə Bakıda gün üzü görmüş “Mənim rəfiqim aprel” şeirlər kitabı əsasında Qubadlı məktəblilərinin hazırladığı kompozisiyalar da təqdim olunacaq. Bu həm də Qubadlının işğalda olması, ümumən Ermənistan və havadarlarının işğalçılıq siyasəti, işğalın acı sonucları barədə qardaş ölkə təmsilçilərinə bilgi vermək baxımından daha bir fürsət olacaq. - Yəni baxın, insanlar başqa bir şəhərə sığınmaq zorunda qalıb, öz doğma torpaqlarına dönə bilmirlər. Biz buna “Gəldim, gördüm, yazdım” düsturu ilə yanaşırıq, qabaqlar da bənzəri tədbirlərimiz olub və ölkəmizə gələn yazarlar gedib öz medialarında önəmli təəssüratlarını yazıblar, necə deyərlər, Azərbaycanın həqiqi dostlarına çevriliblər.

Həmin gün, saat 15-də Azərbaycan Mətbuat Şurasında mətbuatımızın kapitanlarının iştirakı ilə görüş, müzakirə başlayacaq. Nəzər alsaq ki, gələnlərin çoxu öz ölkələrinin mətbu orqanlarında çalışır yaxud jurnalist qurumlarında üzvdür, bu görüş, bayaq dediyimiz məqamlar da daxil olmaqla, özəl anlam qazanmış olur.

27 avqustda saat 14-də ATATÜRK Mərkəzində, artıq haqqında danışdığımız konfrans keçiriləcək. Konfransda millət vəkilləri, tanınmış QHT, KİV təmsilçiləri, alimlər, yazarlar, Dövlət Dəstəyi Şurasının əməkdaşları iştirak edəcək.

Silsilə tədbirlər çərçivəsində baş tutacaq digər görüşlər barədə ictimaiyyətə əlavə bilgi verəcəyik.

***- DGTYB adından da göründüyü kimi dünyanın gənc türk yazarlarını bir araya gətirmək üçün uzun illərdir fəaliyyət göstərir. Bu illər ərzində nələrə nail olmusunuz?***

- Bu ilin sentyabrında təşkilatımızın təsis olunmağının, gələn ilin yayında isə dövlət qeydiyyatına alınmasının 20 ili tamam olacaq. DGTYB özünəməxsus yol keçmiş bir qurumdur. Nələrə nail olmuşuq? Böyük-böyük, yaxud yuxarı pərdədən danışmaq istəməzdim. Çünki bu bizim üçün bir könül işidir, könül işi isə pıçıltı ilə, sakit-sakit danışılınca dadı-duzu qaçmır. Çoxsaylı nəşrlərimiz, üzə çıxardığımız yaxud ictimaiyyətə tanıtdığımız imzalar, tanışlıqlarına, işbirliklərinə ortam yaratdığımız yaradıcı şəxslər, onların yaradıcılıq uğurları qeyd edildikcə, bizim də adımız keçəcək. Az-çox ədalət hissi olan araşdırmaçı, tənqidçi türk dünyasında son illərin ədəbi əlaqələrindən danışınca, DGTYB-nin çalışmalarını qeyd etmədən keçməməlidir.

Başqa da, nə deyim? İnşallah qarşıdakı tədbirlərimizə qatılsanız, özünüz əyani şəkildə tanış olarsınız, neynirik, necə edirik, nəyə nail oluruq?

❑ **Cavanşir ABBASLI**
**Foto: Elçin ƏKBƏROV**
**Musavat.com**

**Xəbər verildiyi kimi, ABŞ Federal Təhqiqatlar Bürosunun əməkdaşları prezident Donald Trampın keçmiş vəkili Maykl Koeni həbs ediblər. ABŞ KİV-lərinin yaydığı məlumata görə, dələduzluqda ittiham olunan Koen ötən gün - avqustun 21-də özü könüllü FTB-yə gedib.**



# ABŞ tarixində üçüncü impiçment- Trampın yaxası əldə

## Prezident isə ölkəsini bazarların çökəcəyi ilə hədələyir

Bu, Koenin vəkilləri ilə prokurorlar arasında əldə edilmiş sövdələşmə çərçivəsində baş tutub. Sövdələşmə Koenin vergilərdən yayınması, Trampın seçkiqabağı kampaniyasının maliyyələşdirilməsi ilə bağlı qanunsuzluqlar, habelə bank sferasında maxinasiyalar barədə ittihamlara aiddir.

Maykl Koen Trampın hüquqşünaslar komandasının "1 nömrəli" üzvü olub və həm seçki kampaniyası dövründə, həm ondan əvvəl onun maraqlarını müdafiə edib.

Koen məhkəmədə hər şeyi etiraf edib, maliyyə cinayətlərini Trampın tapşırığı ilə həyata keçirdiyini bildirib.

CNN bildirir ki, Koen məhkəmədə birbaşa Trampın adını çəməyib, amma məhkəmə sənədlərində prezidentin adı "şəxs-1" kimi keçir. Koen məhkəmədə Trampın seçki kampaniyasını maliyyələşdirmək üçün qanunsuz yollarla 500 min dollar kredit aldığını da etiraf edib. Koenin həbs edildiyi gün Virciniya məhkəməsi onun seçki qərargahının rəhbəri olmuş Pol Manafortu 18 ittihamdan 8-i üzrə təqsirli bilib. Bura vergilərdən yayınma, maliyyə maxinasiyaları, xaricdə gizli bank hesabı açmaq ittihamları da daxildir.




Donald Tramp isə keçmiş vəkili Maykl Koeni kəskin tənqid edib. Avqustun 22-də yazdığı bir neçə "Twitter" postunda Tramp bildirib ki, Koen pis vəkil olub və o ABŞ prokurorlarının təzyiqlərinə tab gətirə bilməyib, elə buna görə də sövdələşmə əldə etmək məqsədilə özündən əhvalatlar uydurub. Bu və digər Tramp ətrafında dönən hadisələrdən sonra onun impiçment məsələsi yenidən gündəmə gəlib.

Tramp son günlərdə yaşanan gəlişmələrlə bağlı Fox TV-yə verdiyi müsahibədə "Mənimlə bağlı vəzifədən çıxarma proseduru başlansa, bazarlar çökər" açıqlamasını verib. Tramp aşağıdakıları deyib: "Yaxşı iş görən birini necə işdən kənarlaşdırarsınız, bilmirəm. Sizə deyirəm. Əgər mənimlə bağlı vəzifədən çıxarılma prosesi başlasa, bazar çörək. Hesab edirəm ki, hər kəs çox kasıb olar".

Bazarın qabaqcıl ticarətçilərinə görə, Trampla bağlı gəlişmələr inkişaf etməkdə olan ölkələrin bazarlarına ciddi təsir edə bilər. Amerikan investisiya bankı "JP Morganın" Londondakı təmsilçisi Con Normand hesab edir ki, impiçment iddialarının gündəmdə müzakirə olunduğu bu günlərdə inkişaf etməkdə olan ölkələrin bazarlarında ciddi risklər özünü göstərir.

CNN-in baş yazarı olan Matt Egan, Trampın vəzifədən çıxarılması halında bazarın dibə enə biləcəyini, amma bazarın tamamın çökəcəyini deməyin çox böyük bir iddia olduğunu yazıb.

Yardeni Araşdırmanın investisiya məsləhətçisi Ed Yardeni isə CNN-ə verdiyi açıqlamasında aşağıdakıları deyib: "Tramp yeri doldurula bilməyəcək biri deyil. Bazarların çökəcəyini düşünmürəm".

Bundan başqa, istintaqla bağlı yaşanan gəlişmələr və Tramp haqda vəzifədən çıxarılma iddialarının ortaya çıxmasına bazarlar çox böyük reaksiya verməyib.

"Tigress Financial Intelligence" şirkətinin rəsmisi İvan Feinseth isə deyib ki, "bu durum bazarın çox da vecinə deyil kimi görünür. Bazarlar Trampın sonu gəlməyən çatışmaları və çılğın şərhlərini görməzdən gəlir".

Mütəxəssislər Trampın durumunun təhlükəli olduğu bir dönəmdə ölkə iqtisadiyyatının güclü bir ərəfədə olduğuna diqqət çəkir. ABŞ iqtisadiyyatı tarixindəki ən böyük böyümə ərəfəsə girmək üzrədir. 2009-cu ildən bəri daim böyüyən Amerika iqtisadiyyatı hazırda tarixi boyunca ən uzun genişləmə sürəcinə girib.

Bu ilin ikinci 3 aylığında 4.1 faiz böyüyən ABŞ iqtisadiyyatı beləcə 2014-cü ildən bəri ən sürətli böyüməsini gerçəkləşdirdi. ABŞ-ın keçmiş prezidenti Riçard Niksonun vəzifədən çıxarılması təhlükəsi ilə üz-üzə qaldığı 1973-cü ildə S&P 500 indeksi 14 faiz, 1974-cü ildə isə 26 faiz düşmüşdü.

Amma mütəxəssislər bazarların bu reaksiyasını Nikson haqqındakı impiçment prosedurunu tətikləyən Vatergate qalmaqalı ilə əlaqələndirmir.

"Janney" Sərmayə Bazarının şef bazar strateqi Mark Luşini də CNN-ə verdiyi açıqlamada bazarların çöküş yaşamasına dair bir gözləntinin çox iddialı olduğunu deyir. Digər tərəfdən, CNN-dən Matt Egan öz məqaləsində qeyd edib ki, vəzifədən çıxarılma ilə impiçment prosedurunun başlanması fərqli anlayışlardır. Trampın kreslosunu itirməsinin hələ çox mümkün görülmədiyi qeyd edilib. Belə bir durumda bazarlar daha fərqli bir reaksiya verə bilər.

Beynəlxalq Maliyyə İnstitutunun direktoru Sonja Gibbs isə "Bloomberg"ə verdiyi açıqlamada Trampın vəzifədən çıxarılacağı təqdirdə prezident olacaq yardımçısı Mayk Pens bazarlara daha yüksək dərəcədə yüksəliş gətirə biləcəyini deyir. Gibbs bunun da inkişaf etməkdə olan bazarlar üçün daha əlverişli bir aura yaradacağını deyir.

"The İndependent" yazır ki, yalnız iki prezident - Endryu Conson və Bill Klinton Nümayəndələr Palatası tərəfindən impiçment olunub. Senat isə heç bir prezidentin impiçmentini qəbul etməyib.

Trampın impiçment edilməsi üçün Nümayəndələr palatasındakı respublikaçılar ona qarşı çıxmalıdırlar. Buna alternativ olaraq 2018-ci ilin mövsümarası seçkilərində demokratlar qalib gəlsələr, onlar Trampın impiçmentinə başlaya bilərlər.

**Ümumiyyətlə, Amerikada impiçment proseduru necə işləyir?**

Prezidentin "Vətənə xəyanət, rüşvət, ağır cinayət və ya başqa pis davranış sərgiləmək" kimi cinayətlərdən birini etməsindən şübhələnən hər hansı təmsilçi impiçment prosedurunu başladacaq qanunu Təmsilçilər Məclisinə təqdim edə bilir.

Bu müraciət daha sonra Təmsilçilər Məclisi Ədalət Komitəsinin qarşısına çıxarılır. Əgər üzvlərin 51 faizi impiçment prosesinə dəstək verirsə, prosedur Senatda davam etdirilir.

**Senat**

Senatdakı prosedur ABŞ Ali Məhkəməsi baş prokurorluğunun rəhbərliyində irəliləyir. Hüquq terminologiyasında izah etsək, Təmsilçilər Məclisindən üzvlər prokurorluq instansiyasını təmsil edir, senatorlar isə jüri vəzifəsini öz üzərinə götürür. Prezident isə vəkilləri ilə birgə qatılır.

Əgər senatorların 67 faizi prezidenti günahkar bilsə, onun vəzifədən çıxarılması gerçəkləşir və vəzifə müddətinin geri qalanında prezident köməkçisi prezident kreslosunda oturur.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# O olmasın, bu olsun - 103 il sonra



**Samir SARI**

**Salyanda toydan iki gün öncə ər evinə getməkdən imtina edən və qaçıb aradan çıxan gəlinin, eləcə də bu hadisədən xəbər tutan kimi gəlinin rəyasətdəki yerini dərhal başqasıyla dolduran bəyin əhvalatına dair söhbətlər artıq yavaş-yavaş gündəmə oturmaqdadır.**

Şərhlər, rəylər, versiyalar, mülahizələr, iddialar, ittihamlar, hökmlər bir-birinə qarışıb. Məsələyə, oxumuş adamların sözü olmasın, hansı rakursdan baxsaq, bu, maraqlı, həm də aktual hadisədir.

Düzdür, mühafizəkar insanlar "elimizin adəti var" deyənlər, "əvvəllər belə şeylər olmazdı" deyirlər, amma olaya bir qədər qeyri-emosional şəkildə yanaşsaq, görərik ki, xeyir bundaymış.

Əgər qız toydan iki gün əvvəl qaçmağa qərar veribsə, deməli, hələ nişan qoyulandan bəri tərəddüddə imiş, bilmirmiş ərə getsinmi, getməsinmi?

Söz yox ki, bu baş tutmayan izdivacda "sevgi"ni S-yı, "məhəbbət"in M-yı olmayıb. Bir-birini sevən gənclər toy gününü həsrətlə gözləyər, köhnə şairlərin sözü olmasın, uzun hicrandan sonra şirin vüsala yetməyin intizarını çəkərlər. Ancaq hiss olunur ki, toy günü yaxınlaşdıqca qız daxili götür-qoy, çək-çevir, ağır-yüngül proseduru aparıb və axırda qərara gəlib ki, sevmədiyi birinə gedincə, aradan çıxsa yaxşıdır.

**Elə bəy də "eşqdir mehrabı uca göylərin" deyə düşünənlərdən və "sevgili yarın həsrəti ilə qovrulanlar"dan olmayıb. Elə olsaydı, o, prinsipcə, 3 variantdan birini seçərdi:** 1. Məcnun olub çöllərə düşərdi. 2. Dərin depressiya yaşayar, bəlkə də intihar haqda düşünərdi. 3. Qisas hissi ilə alışıb-yanar, qızı və ona dil verən xalasını (adətən belə düşünürlər) tapıb amansız intiqam alardı.

Amma bəyimiz 4-cü, ən ağıllı yolu seçib, çöllərə və depressiyaya, eləcə də adam öldürüb türməyə düşməyib, 103 il əvvəlin parlaq təcrübəsindən yararlanıb və deyib: "O olmasın, bu olsun". Beləcə, indi qaçan qızın yerini başqa bir xanım tutub.

Düzdür, onların adı hazırda dildə-dişdə gəzir, amma bunun təzətoylu gənclərin ovqatına heç bir dəxli yoxdur, onlar yeni evliliyin balından, doşabından yeyir və düşünürlər ki, xeyir bundaymış.

Xeyir demişkən, elə adamlar var, deyirlər, təzəbəy bu addımı maddi ziyana düşməmək üçün atıb. Ola bilər, məlumdur axı, toy eləmək zırıltı xərc aparır - bunun xınayaxdısı, bayramlarda qoç bəzəməyi, başlıq-süd pulu verməyi, qızıl-zinət əşyaları, bir neçə çamadan paltar-palaz almağı, xüləs, bir ətək xərc-xəsarəti var.

Bəy müasir və praqmatik gənc olduğu üçün bu xərcləri ikinci dəfə çəkməməyi düşünə bilərdi, amma güman ki, burada başqa bir amil də var. Bu da o hərəkəti (təcili təzə gəlin namizədi tapmaq) acığa etməkdir. Bəli, millətimizin təfəkkür tərzində var: həmişə ekstremal situasiyada olmasa da, arada acığa evlənmələr də olur. Bir də görürsən, iki əzəli rəqiblər (düşmənlər də demək olar) eyni qapıya elçi gedirlər. Qız da heç birini istəmir. Amma rəqiblər sona qədər dirəşirlər, axırda ən dirəşkəni qızı alır. Bax, bu acığa evlənməkdir.

Onu da deyim ki, gəlinin toydan qaçması və bəyin elə həmin gün özünə təzə gəlin tapması hadisəsi yeni şey deyil. Hətta ötən əsrin 80-ci illərində, Şamo İsayevin yeni-yeni kaset buraxdığı vaxtlarda da belə bir hadisə olmuşdu. Bizim kənddən qonşu rayondakı qohumlarıgilə toya gedən qızı elə həmin toyda gəlin etmişdilər. Köhnə gəlin ya qaçmışdı, ya da nəsə olmuşdu, üstündən 40 ilə yaxın vaxt keçib, dəqiq yadımda deyil, amma o qız kəndə qayıtmadı. İndi ağbirçək arvad olar.

Bu yarıməzəli hadisəyə reaksiya verənlərin içində bir xanımın statusu çox məzəliydi, yazırdı ki, biz də subayıq, qaçan gəlindən-zaddan olsa, xəbər verin, gedək, xoşbəxt olaq. Bir nəfər də yazmışdı ki, bəs sevgi necə olsun, sevməyərək ərə getmək olarmı. Xanım ona belə cavab vermişdi: "Sonra sevərik. Əsas evdən çıxmaqdı".

Söz yox, bu şən xanım zarafat edir. Çünki əsas məsələ evdən çıxmaq deyil, əsas məsələ yuva qurmaqdır və onu düzgün adamla etməkdir.

**Toy günü qaçmaq hadisəsi isə valideyn basqısına üsyandır, güman ki. Kim belə bir hadisə (özüm rüsvayçılıq yazmıram) ilə üzləşmək istəmirsə, ailə quran övladına təzyiq etməsin, məsləhətlə danışsın, gəncin tərəddüdü, etirazı varsa, geri dursun. Yoxsa tərəflərin ikisi də toy günü itik axtaracaq: biri qaçan qızı, o biri də boş qalmış gəlinliyi geyindirmək üçün uyğun ölçüdə başqa qızı.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ üçün diplomatik həmlə - təşəbbüs şimaldan, yoxsa Qərbdən gələcək?

## ATƏT-in Minsk Qrupunun üzvü olan Almaniyanın birinci şəxsi bu gün Bakıda olacaq; Merkelin bölgə səfəri Qarabağ danışıqlarına stimul verə biləcəkmi?..

**Almaniya kansleri Angela Merkelin Cənubi Qafqaza üç günlük səfəri başlayıb. Srağagün o, Gürcüstanda, dünən isə işğalçı Ermənistanda olub. Bu gün o, Bakıya gələcək. Səfər Azərbaycan üçün həm də xeyli müddətdir dalanda olan Dağlıq Qarabağ danışıqları kontekstində önəm daşıyır.**




Tiflisdə olarkən Merkel Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini ifadə edib. "Sonuncu dəfə Gürcüstana 10 il öncə gəlmişdim. O zaman atəşkəs sazişi imzalanmışdı. Həmin vaxt rus əsgərlərinin Gürcüstandan (Abxaziya və Cənubi Osetiyadan - red.) çıxmasını qəti şəkildə tələb etmişdim və təbii ki, 10 il sonra da ölkənin ərazi bütövlüyünü dəstəkləyirəm", - deyə kansler qeyd edib.

*****

"Yeni Müsavat" xatırladır ki, dünyanın dördüncü iqtisadi nəhəngi olan Almaniya Dağlıq Qarabağ konfliktinin həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupunun üzvüdür. Böyük ehtimalla, xanım Merkel Bakıda da analoji mövqe sərgiləyəcək. Yəni ölkəsinin Azərbaycanın da ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini bəyan edəcək. Əslində rəsmi Berlin heç vaxt ərazi bütöylüyümüzü şübhə altına almayıb. Bunu istər dövlət səviyyəsində, istərsə də üzvü olduğu mötəbər qurumlar, o cümlədən BMT, Avropa Birliyi və Avropa Şurasının qəbul elədiyi sənədlərdə vaxtaşırı təsdiqləyib.

Şübhə yox ki, Qarabağ probleminin dinc yolla həllində əsas maneə Rusiya faktoru olaraq qalır. Çünki Moskva məhz bu konflikt vasitəsilə regionun 3 ölkəsindən ikisini - Azərbaycanı və Ermənistanı öz təsir zonasında saxlaya bilir. Gürcüstana isə artıq qeyd edildiyi kimi, Abxaziya və Cənubi Osetiyanın işğalı hesabına öz ərazi bütövlüyü və suverenliyini illərdir bərpa eləməyə imkan vermir. Yəni müəyyən mənada qərb qonşumuzun da Avropaya inteqrasiya yolunda əngəl yara bilir.

Dağlıq Qarabağ münaqişəsini müstəsna olaraq, öz nəzarətində saxlayan və başqa heç bir dövlətin onun həllində real vasitəçi olmasını arzulamayan, başqa təşəbbüslərə qısqanc yanaşan Kremlin bu məsələdə yetərli diplomatik fəallıq göstərməməsinin səbəbi də aydın: münaqişənin həllini uzatmaqla Bakı və İrəvana təsir rıçaqlarını və bölgədə hərbi mövqeyini saxlamaq, üstəlik, münaqişə tərəflərinə öz silahlarını satmaqla maddi qazanc götürmək.

*****

Bu arada Rusiyadan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı vasitəçilik missiyasının davam edəcəyi barədə növbəti şablon bəyanat gəlib. Ənənəvi həftəlik brifinqdə bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib. Onun sözlərinə görə, Rusiya münaqişə tərəfləri ilə müxtəlif formatlarda daima təmasdadır.

XİN rəsmisi Azərbaycan, Ermənistan və Rusiya XİN başçıların yaxın zamanlarda görüşünün təşkil olunub-olunmayacağı ilə bağlı sualı isə belə cavablandırıb: "Bu görüş planlaşdırılsa, biz bu barədə məlumat verərik".

Göründüyü kimi, Moskva Qarabağ məsələsində heç bir diplomatik həmləyə hazırlaşmır. Buna lüzum da görmür. Rusiyanın məsələdə klassik yanaşması da dəyişməz qalır: "Münaqişə tərəfləri - Azərbaycan və Ermənistan razılığa gəlsin, biz bu razılaşmaya qarant durmağa hazırıq". Ancaq iş də ondadır ki, İrəvan hazırda Dağlıq Qarabağ məsələsində müstəqil qərar vermək iqtidarında deyil, Moskvadan çəkinir və onun sözü ilə oturub-durur. Ayrı sözlə, Azərbaycan əslində ilk növbədə Ermənistanın işğal ortağı Rusiya ilə anlaşmalıdır.

*****

Qarabağ münaqişəsinin uzanması həm də ona görə Rusiyaya əl verir ki, regiondan Avropaya uzanan strateji əhəmiyyətli neft-qaz kəmərlərinin təhlükəsizliyi məsələsi tam həll olunmamış qalır. Çünki müharibə ehtimalı yüksək olaraq qalır. Rusiya nə bu kəmərlərin varlığında, nə də Avropanın, Almaniyanın enerji təhlükəsizliyində mühüm önəm daşıyacaq yeni meqa-layihənin - Cənub Qaz Dəhlizinin inşasında maraqlı deyil. Kreml Avropanın, Almaniyanın ondan qaz asılılığının azalmasını istəmir, bu faktordan Avropaya, Qərbə qarşı bundan sonra da şantaj kimi istifadə etmək niyyətindədir.

Amerikalı politoloq Piter Teys bu xüsusda haqlı olaraq, qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi və Qafqazda regional təhlükəsizlik məsələsi də Angela Merkelin Bakı səfəri zamanı müzakirələrin mərkəzində olmalıdır. "Ona görə ki, Azərbaycanın ərazi bütövlüyü bölgədə sülh və təhlükəsizlik üçün çox vacib məsələdir. Bu olmadan qaz boruları həmişə təhlükə ilə üz-üzə qala bilər ki, bu da Avropa iqtisadiyyatına ciddi mənfi təsir göstərə bilər", - deyə o vurğulayıb.

**Bu mənada Qarabağ danışıqlarını dalandan çıxarmaq, müharibə riskini minimuma endirmək, böyük sülh anlaşmasını yaxınlaşdırmaq üçün yeni diplomatik həmləyə, yaxud təşəbbüsə ehtiyac var. Bu təşəbbüsü isə artıq qeyd olunan səbəblərdən şimaldan deyil, daha çox Qərbdən gözləmək lazım gəlir. Məsələnin texniki tərəfinə gəlincə, bu, artıq Avropa, Qərb diplomatlarının və "beyin mərkəzləri"nin vəzifəsidir.**



# Köçəryan separatçı rejimlə təmaslarını sıxlaşdırır

**Ermənistanın sabiq prezidenti Robert Köçəryan siyasətə qayıdacağını elan etdikdən sonra onun Qarabağ ermənilərini Paşinyan hakimiyyətinə qarşı hazırlamaq niyyətində olduğu barədə informasiyalar çoxalıb.**

Musavat.com erməni mətbuatına istinadən xəbər verir ki, Köçəryan barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsi üçün vəsatət verən qruplardan biri də qondarma "respublika"nın "parlamenti"nin 15 "deputat"ı olub. Qarabağın erməni icmasını təmsil edənlərin dilindən hətta vətəndaş müharibəsi ilə bağlı təhdidlər gəlməyə başlayıb. Məsələn, Milli Təhlükəsizlik Partiyasının sədri Qarnik İsaqulyan indiki hakimiyyəti "inqilabçı" və ya "əks-inqilabçı"lara bölməməyə çağırıb. O, Paşinyan iqtidarının Qarabağla bağlı hər hansı bir güzəştə gedəcəyi təqdirdə vətəndaş müharibəsinin başlanacağını söyləyib.

Qondarma "DQR"in "parlament"inin "deputat"ı Ayk Xanumyan 1in.am saytına Qarnik İsaqulyanın bu bəyanatını boş yerə söyləmədiyini bildirib. "İsaqulyan "DQR"in Ermənistandakı "daimi nümayəndəliyi"nin müşaviridir. Fikirləşirəm ki, o Qarabağdakı erməni hərbi komandirlərlə də görüşüb. Hazırda Bako Saakyan (qondarma rejimin başçısı - **red.**) və onun "generalları" əvvəlki vəziyyəti bərpa, habelə köhnə dövrlərdə olduğu kimi, dövlət büdcəsini talamağa, silahlı gücün qeyri-qanuni olaraq tətbiqinə, işgəncələrə davam etmək üçün fors-major situasiyanı güdürlər. Bütün bunlar olduqca real söyləntilərdir. Lakin mən bunu Robert Köçəryanın deyil, Serj Sərkisyanın adı ilə bağlayardım. Çünki Serj Sərkisyan bu yaxınlarda Dağlıq Qarabağda olub və burada onun ətrafında hərbçilər toplanıb, onunla nahar ediblər, müxtəlif kilsələrə baş çəkiblər. Fikirləşirəm ki, onlar elə Serj Sərkisyandan müxtəlif göstərişlər də alırlar. Görünür, bu insanlar üçün Nikol Paşinyan öz hakimiyyətləri üçün təhdid sayılır" - Ayk Xanumyan əlavə edib.

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

**Mətbuat müğənni Mətanət Əsədovanın sosial şəbəkələrdə içki içərkən çəkilmiş videosunun yayılması haqda yazıb. Sonradan görüntülər mətbuata da çıxdı və öz ətrafında qalmaqal daha da böyüməyə, ictimaiyyətin müzakirə mövzusuna çevrilməyə başladı.**



# Mətanət Əsədovanın araq qədəhi jurnalistlərin başında "çatlayır" - sərt reaksiyalar

## "Davranışlarına fikir versinlər, mətbuat da yazmasın..."

Qalmaqallı video istər sosial şəbəkələrdə, istərsə də mətbuata yayıldığı andan ciddi ictimai qınağa tuş gəldi. Hətta bəzi həmkarları, o cümlədən aktyor və aparıcı Sərxan Kərəmoğlu müğənnini kəskin tənqid edib. Buna baxmayaraq Mətanət Əsədovanın müdafiəsinə qalxan həmkarları da olub. Onların arasında müğənni Ədalət Şükürov da var. Müğənni həmkarının içki məclisindən olan videosunu yayımladığı üçün xəbər saytlarını qınayaraq, onları təhdid və təhqir edib: "Dünəndən gördüm bu videonu. Ayıb olsun onu çəkib paylaşana və o saytlara ki, bu videonu paylaşıblar. Birincisi, Mətanət içki içmir, ikincisi də söyüş söyüblər, Mətanət də etirazını bildirib və ondan üzr istəyiblər. Niyə reytinq xətrinə bunu saytlar şişirdir? Mən neçə dəfə demişəm bu şərəfsiz, mədəniyyətsiz, əxlaqsız, dövlətini sevməyən saytları bağlamaq lazımdır!"

**Onu da qeyd edək ki, bundan əvvəl də bir neçə dəfə müğənni Ədalət Şükürov mətbuat, jurnalistlər barəsində təhqiredici ifadələr səsləndirib.** Məsələn, bir neçə il bundan əvvəl televerilişlərin birində müğənniyə dahi sənətkarlarımızın, o cümlədən məşhur aktyorlar Adil İsgəndərov, Fazil Salayev, Məlik Dadaşovun şəkilləri göstərilib, adları soruşulanda Ədalət Şükürov onları tanımamışdı. Müğənni hətta dahi bəstəkarımız Qara Qarayevin də kimliyini tapa bilməmişdi. Verilişdən sonra müğənni mətbuatda, sosial şəbəkələrdə qınağa tuş gəlmişdi. Müğənni isə buna görə jurnalistləri çox ağır şəkildə təhqir etmişdi. Və yaxud ötən il efirdə sayt jurnalistlərini "zurnalist" adlandırmışdı.

"Mətbuatın, hansısa jurnalistin təhqir olunması yolverilməzdir". Bu sözləri **Mətbuat Şurası İdarə Heyətinin üzvü, əməkdar jurnalist Vüqar Rəhimzadə** məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi. O, qeyd etdi ki, sonuncu məlum video ilə bağlı qalmaqalda mətbuatın medianın günahı, məsuliyyəti yoxdur: "Bu haqda bu əməlləri törədən insanlar düşünməli və məsuliyyət daşımalıdır. Mətbuatın funksiyası ondan ibarətdir hansısa olayı, faktı, tədbiri işıqlandırsın. Əgər həmin sənətçilər bu əməllərin sahibidirlərsə, bu işdə mətbuatın günahı nədir? Əvvəla, onlar öz fəaliyyətlərinə, hərəkətlərinə diqqət etməlidir. Onlar o cür davranmasınlar, mətbuat da yazmasın. Mətbuatın, hansısa jurnalistin təhqir olunması isə yolverilməz, qəbulolunmazdır. Mətbuat əgər yalan yazıbsa, bu başqa söhbətdir. Yox, reallığı yazıbsa, artıq burada mətbuatın heç bir məsuliyyəti, günahı yoxdur".

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, tanınmış jurnalist Elçin Mirzəbəyli** də məlum videonun yayılmasında mətbuatın məsuliyyət daşımadığını dedi: "Əslində Azərbaycan qanunvericiliyində şəxsi həyata müdaxilə məsələsi yolverilməzdir və jurnalistlərin peşə prinsipi də buna icazə vermir. Söhbət burda şou-biznes məsələsindən gedir. Adətən bu mövzulardan kənar qalmağa çalışıram. Nəzərə almaq lazımdır ki, əslində məlum videonu yayanın davranışları qeyri-qanunidir. Burada mətbuatı qınamaqdansa, videonu yayan şəxsi məhkəməyə verib, cəzalandırmaq lazımdır. Yəni bir daha qeyd edim ki, bu məsələdə mətbuat günahkar deyil, günahkar videonu yayan şəxsdir. Artıq bu video sosial şəbəkələrdə yayıldıqdan sonra mətbuatın həmin videonu yaymasında qeyri-qanuni bir hərəkət yoxdur. Bir məqama xüsusi diqqət çəkmək istəyirəm ki, Azərbaycan mediası bəzən ucuz materialdan istifadə edərək reytinq qazanmağa çalışır. Ümumiyyətlə, bu olayda iştirak edən şəxslərin özünün sənət, intellekt və ictimai baxımdan hansı çəkisi var ki, bu gün mediaya çıxarılaraq barəsində müzakirələr aparılır? Bu cür şəxsləri diqqətdən kənarda saxlamaq lazımdır".

**Tanınmış jurnalist Azər Rəşidoğlu** isə mövzuya bu cür şərh bildirdi: "Əslində Manaf Ağayev, Mətanət Əsədova sindromu mətbuatın və şou biznesin üzünü göstərdi. Müqəssir elə mətbuat özüdür. "Palatka" müğənnilərinə bu qədər diqqət ayıranda axırı elə belə də olmalı idi. Manaf və Mətanətin efir vasitəsi ilə etdikləri təhdid və təhqirlər konkret cinayət əməlidir və onlar cinayət məsuliyyətinə cəlb edilməli, Tolik (prodüser Tarix Əliyev - red.) adlanan o "yaratığın" verilişi bağlanmalıdır. Görün, vəziyyət nə həddə çatıb ki, artıq hamı 3 nəfər barədə - Tolik, Manaf və Mətanət barədə tənqidi fikir səsləndirməyə qorxur. Qorxur ki, Tolik və Mətanətin ixtiyarında efir var və o, bizi təhqir edər. Hər kəs qorxur ki, Manaf onu döyə bilər, axı o, özünü kriminal avtoritet hesab edir. 30 ilin jurnalisti kimi həmkarlarımdan xahiş edirəm: Manaf və Mətanəti unudun, onlardan açıqlamalar və müsahibələr almayın, fotolarını dərc etməyin, efirdə göstərməyin. Not bilməyən insanları bu qədər şişirtməyin. Manaf Ağayev özünü dövlətdən, qanundan yuxarıda görür, nə polisdən ehtiyat edir, nə hüquq-mühafizə orqanlarından. Aylardır hamını "razborkaya" dəvət edir, "sındırır", təhqir edir, qorxudur. Sanki hamı onun əlində aciz qalıb. Bu nə vaxta qədər davam edəcək? Ona "dur" deyən tapılmayacaqmı?"

aznews.az saytının baş redaktoru Taleh Şahsuvarlı isə məlum görüntülərin mətbuatda yayılmasının yolverilməz olduğunu dedi: "Biz bu məsələyə bir dəfə də yer verməmişik. Bu cür məsələnin saytımızda yayınlanması bizim oxucularımıza hörmətsizlik olardı. Ümumiyyətlə, düşünürəm ki, özünə və oxucularına hörmət edən media o görüntüləri yaymalı deyildi. Kimsə bunu "İP" xatirinə edirsə, bu da mübahisəli yanaşmalıdır. Çünki biz o görüntüləri verməsək də reytinqimizi səviyyəli yazılar, maraqlı müsahibələr və özəl açıqlamalarla qaldırırıq. Deməli, işin asanına qaçmaq və jurnalistikanı küçə söhbətləri səviyyəsinə endirmək lazım deyil".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Kişiləri qadınlardan tez öldürən səbəblər-araşdırma

## Həkim ekspert: "Kişilər qadınlara nisbətən daha çox stress yaşayır"

**Demoqrafik göstəricilərə görə, 2017-ci ildə dünya əhalisinin orta illik sayı 7536 milyon nəfər olub. Dünya əhalisinin doğulanda gözlənilən ömür uzunluğu yaş sayı kişilərdə 70, qadınlarda isə 74-dür. Dünyanın ən uzunömürlü insanları San-Marinoda yaşayır. Burada doğulanda gözlənilən ömür uzunluğu yaş sayı kişilərdə 85, qadınlarda 89-dur. Ən aşağı göstərici Qərbi Afrikadadır. Syerra Leonda doğulanda gözlənilən ömür uzunluğu yaş sayı kişilərdə 51, qadınlarda isə 52-dir.**

Ümumilikdə, Avropa ölkələrinə uzunömürlülərin vətəni də demək olar. Burada ən aşağı göstərici Moldovadadır (kişilər 68, qadınlar 76).

Azərbaycanın statistikasına baxsaq, 2018-ci ilin əvvəlinə Azərbaycan əhalisinin sayı 9 milyon 898 min nəfər olub. Əhalinin 4 milyon 938 min nəfəri kişilərdən, 4 milyon 960 min nəfəri isə qadınlardan ibarətdir. Hər 1000 nəfər kişiyə 1005 nəfər qadın düşür. Ölümün səviyyəsi gözlənilən ömür uzunluğu göstəricisində də öz əksini tapır. Ötən il doğulan körpələr üçün gözlənilən ömür uzunluğu 75,4 yaş, o cümlədən oğlanlar üçün - 73,1 yaş, qızlar üçün isə - 77,8 yaş olub.

Yuxarıda yazılan bütün statistikadan da göründüyü kimi qadınlar kişilərə nisbətən daha çox yaşayır. Kişilərin qadınlara nisbətən daha az yaşamasının səbəbi nədir?

Mövzu ilə əlaqədar "Yeni Müsavat"a danışan **tibb elmləri üzrə fəlsəfə doktoru Vasif İsmayıl** kişilərin qadınlara nisbətən daha az yaşamasının elmi izahını verir. Bildirir ki, rüşeym ana bətninə düşdüyü andan kişi cinsindəndirsə, onun doğulma ehtimalı qadına görə daha azdır: "Baxmayaraq ki, kişilər qadınlara nisbətən daha çox doğulur, amma qız uşaqlarının yaşamaq ehtimalı daha çoxdur. Bundan əlavə, insanı qocaldan hadisələr var. Bunlarında başında hormonal status dayanır. Kişilərin hormonal statusu daha yüksək testosteron səviyyələri ilə gedir. Qadınlarda isə hormonal status 28 gündən bir menstruasiya ilə birlikdə dəyişir. Və 40 yaşından sonra qadında menopoz başlayır. Kişilərdə isə andropoz heç vaxt baş vermir. Andropoz




çox şərti termindir, praktik olaraq biz bunun olmadığını düşünürük. Yəni kişilər uzun müddət testosteron və fəal hormonal statusda qaldıqları üçün onlarda qocalma prosesi daha sürətlə gedir. Düzdür, qadınlarda yorulma, taqətdən düşmə daha çox olur, amma kişilər da tez sınır. Kişilərdə maddələr mübadiləsi daha sürətlə gedir. Bir orqan, bir vasitəni, bir şeyi çox istifadə edəndə bir o qədər də tez xarab olur. Müəyyən mənada kişilər də belədir. Kişilər qadınlara nisbətən daha çox stress yaşayır. Sözsüz ki, bunun da təsiri var. Bu da kişinin hormonal statusu ilə bağlıdır. Kişilərdə testosteron hormonu yuxarı olur. Amma bu qadında dəyişir. Düzdür, bu dəyişkliyin özü də o qədər də yaxşı bir şey deyil, o da başqa problemlər yaradır. Amma ümumi götürəndə müəyyən müddətdən sonra hormonal statusun aşağı düşməyi daha çox xeyir edir insana, nəinki həmişə yuxarı səviyyədə qalsın. Stress də onun hormonal fonundan əmələ gəlir. Kişinin xayasını çıxartdığımız zaman o insan özünə gəlir, özünü daha gümrah hiss edir, stress və aqressiya azalır. Testosteron hormonu insana aqressivlik verir".

Qadınların daha uzunömürlü olmasının psixoloji tərəfləri də var. **Psixoloq Alidə Əhmədova** bunu kişilərin qadınlara nisbətən problemlərini daha çox gizlətməsi ilə əlaqələndirir: "Kişilər problemlərini bölüşmədikləri üçün psixoloji olaraq yüklənirlər. Onlar qadınlara nisbətən ailəsini daha çox düşünür, hesab edirlər ki, ailəni qorumaq kişilərə aiddir. Hətta kişilər ağlamaq istəsələr belə ağlamaqdan çəkinir, "mən kişiyəm, kişilər ağlamaz",-düşüncəsi ilə güclü görünməyə çalışırlar. Daim bir qorxu ilə yaşayırlar. Həm də qadınlar kişilərə görə bioloji üstünlüklərə də malikdirlər. Qadınlardakı estrogen hormonu infarkt olma riskini azaldır".

**Alimlərin araşdırmasına görə, evli kişilər subaylara nisbətən daha uzunömürlü olurlar.** 19-44 yaşlarında kişilər arasında subayların 50 yaşına çatmadan ölmək ehtimalı evlilərlə müqayisədə düz 58% artıqdır.

ABŞ-da 67 min kişi və qadın üzərində araşdırma aparılıb. Məlum olub ki, vaxtilə evli olmuş və sonradan boşanmış kişilərin vaxtından əvvəl ölmək riski də evlilərlə müqayisədə 27% artıqdır.

Əzələlərinin qadınlara nisbətən daha güclü olması ilə öyünən kişilər zərif cinsin nümayəndələri ilə müqayisədə daha tez xəstələnir, daha gec sağalır və daha tez ölürlər. Kişi vücudu infarkt və iflic kimi xəstəliklərə qarşı daha həssasdır.

Bütün bunlarla yanaşı, kişilərin qadınlara nisbətən daha aqressiv olmaları, şiddət və qorxunu, riski sevmələri, siqaret və alkoqol istifadə etmələri, maşın idarə edərkən təhlükəsizlik kəmərini taxmamaları da onların ölüm sayını artırır.

**Harvard Tibb Məktəbinin dosenti Harvey Simon** kişilərdə ölüm riskini azaltmaq üçün kişilərə aşağıdakı qaydalara əməl etməyi tövsiyə edir:

- Tütün və alkoqollu məhsullardan istifadə etməmək
- Davamlı idman etmək
- Düzgün qidalanmaq
- Stresdən uzaq olmaq
- Maşın idarə edərkən təhlükəsizlik kəmərini taxmaq
- Cinsi yolla yoluxan xəstəliklərdən qorunmaq
- Ən əsası mütəmadi həkim müayinəsindən keçmək.

**Əziz kişilər, yuxarıda sadalanan bəndlərə əməl edin və uzun yaşayın!**

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

# Dünyanın ən qəribə toy hekayətləri - bizdə və onlarda

## Özü ilə evlənən çinlilər, təyyarənin üstündə nikaha girənlər və daha nələr...

**Avqustun 23-də Salyan rayonunun Qaraçala qəsəbəsində keçirilən toy mərasimində gözlənilməz hadisə yaşanıb. ölkə.az xəbər verib ki, qəsəbədə toy mərasimi keçirən Adil Eyvazov (ad şərtidir) adət-ənənəyə uyğun olaraq günorta saatlarında gəlin gətirməyə gedən zaman qız evində üzləşdiyi vəziyyət onu pis duruma salıb. Belə ki, bəy qız evinə gedən zaman gəlinin başqa bir oğlana qoşulub qaçdığını öyrənib. Məlum olub ki, gəlin toydan bir gün öncə, yəni el arasında "heyvankəsdi" adlanan vaxt evdən qaçıb.**

**Çıxılmaz duruma düşən bəy toy günü bir neçə saat ərzində başqa bir gəlin taparaq evinə gətirib. Oğlanın valideynləri gəlinin başqa bir oğlanla qaçması nəticəsində xeyli maddi ziyana düşdüyünü bildirirlər. Qeyd edək ki, gəlin Əliyeva Sona (ad şərtidir) Salyan rayonunun Düzənlik kəndinin sakinidir.**

Sözügedən hadisə son bir sutkada sosial şəbəkə və mediada ən çox müzakirə edilən mövzulardan birinə çevrilib. Bəlkə dünya üzrə "ən qəribə toy hekayələri" kateqoriyasında bu sayaq nümunə belə, yoxdur. Amma biz fürsətdən istifadə edib, dünyadakı qəribə toylardan danışacağıq. Qəribə toy adətlərindən yox, məhz toylardan - bizim üçün ağlasığmaz görünən, qeyri-adi formada baş verən, qəribə sonucları olan toylar.

**Su altında, məhkəmə zalında, havada... evlənənlər varmış**

Çində bir cütlük su altında evlənib. Rusiyada isə məhkum olduğu zaman aşiq olan bir cütlük sevgilərinin başladığı həbsxanada evləniblər. Cənubi Koreyada bir cürlük toy öpüşünü göy üzündə edib. İsveçdə isə cütlük bir oteldə toyunu edib. Çində 10.10.10 tarixində minlərlə cütlük eyni anda evlənib.

**Bunlar, sadəcə, bir neçə örnəkdir. Keçək digərlərinə.**

ABŞ-ın Kaliforniya ştatında qətlə bağlı adi məhkəmə prosesi məzəli sonluqla bitib. Hakim hökmü oxuyandan cəmi bir dəqiqə sonra nikah mərasimi keçirib və müttəhimi ailə qurması münasibətilə təbrik edib. Di gəl, təzə bəy gəlininə yarım əsr sonra qovuşacaq. Təzə bəyə çevrilmiş müttəhim Denn Desbrounun məhkəməsi prosesi San-Dieqo şəhərində keçirilib. 36 yaşlı D.Desbroun qətldə suçlanaraq 53 il müddətinə azadlıqdan məhrum edilib.

Hökm oxunandan dərhal sonra hakim Patrisiya Kukson zaldakıların tam əksəriyyətinin çölə çıxmasını tələb edib. Zalda yalnız müttəhimin valideynləri və bacısı, habelə onun nişanlısı, 33 yaşlı Destininin qohumları qalıblar. Hakim Kukson nikahı rəsmiləşdirib, Denn və Destini öpüşübləR. Bundan sonra Patrisiya Kukson təzə bəylə gəlinə evində bişirdiyi tortu verib. Məhkəmə zalına bıçaq keçirmək yasaqlandığından Kukson tortu əvvəlcədən kəsmişdi və bu minvalla təzə bəylə gəlin tort tikələrini plastik çəngəllərlə yeyiblər.

Nikahdan əvvəl Patrisiya Kukson çox sərt olub. O, ağır cəzanı nəzərdə tutan ittihamı mümkün qədər tez oxumağa çalışıb, habelə işə yenidən baxılması və hökmün vaxtının dəyişdirilməsi ilə bağlı vəsatətləri rədd edib. Müttəhimin vəkili Stiv Klaynın dediyinə görə, baş verənlər onun üçün də gözlənilməz olub: "Bu, fenomenal gün idi. Nikahla bağlı xahişi nəzərə aldığına görə hakimə minnətdaram. Həyatım boyu belə proses görməmişdim".

Denn Besropu 2003-cü ildə Kevin Santosu qətlə yetirib. Uzun illər boyu qatili ifşa etmək mümkün olmasa da, sonucda Dennə qarşı ifadə verən şahid tapılmışdı. Denn və Destini 20 il əvvəl tanış olublar. Destini hamilə qalandan sonra onlar ayrılmışdılar. Bu ilin yanvarında isə Destini oğlunun xahişi ilə Denni facebook-da tapmışdı. Fəqət, həmin vaxt Denn artıq həbsdə idi.

Destini məhkəmənin hər iclasına qatılmağa başlayıb və proses zamanı Denn oğlunun 33 yaşlı anasına evlənməyi təklif edib. Destini də hakim Kuksondan nikahı rəsmiləşdirməyi istəyib. Nikah zamanı təzə bəyin biləklərində qandal, zalın bütün qapıları isə bağlı olub. Yaşananları 5 polis zabiti diqqətlə izləyib. Patrisiya Kuson 1992-ci ildə Kaliforniya ştatının qubernatoru Pit Uilsonun qərarı ilə hakim təyin olunub.

**Xəstəxanada, sarğılar içində evləniblər**

Bir neçə il öncə Keniyada dünyanın ən qəribə toylarından biri keçirilib. Bəylə gəlin ağır yaralı vəziyyətdə xəstəxanadakı ortopedik yataqda ailə həyatına qədəm qoyublar.

Əslində Ceyms Muanqi və Miryam Qakenyanın toyu ənənəvi şəkildə keçiriləcəkdilər. Ancaq mərasimə bir neçə gün qalmış nişanlı cütlük ölümcül avtomobil qəzasına uğrayıblar. Gəlin bədənindəki çoxsaylı qırıq xəsarətləri ilə həkim nəzarətinə götürülüb. Dəvətnamələr qohumlara paylandığından, bəylə gəlinin ailəsi toyun vaxtında keçirilməsinə qərar verib. Belə olan halda bədəni gipsin içində olan gəlin və vəziyyəti nisbətən yaxşı olan bəy qolundakı sarğı ilə toya gəlməli olub.

Xəyallarındakı toyla ərə getmək arzusu reallaşmayan Miryam heç nişan üzüyünü də barmağına taxa bilməyib. Buna səbəb onun barmağının da sarğının içində olması olub. Ancaq evləndiyi üçün xoşbəxt olduğunu gizlətməyən keniyalı qız hələ bir müddət ər evinə həsrət qalacaq. Onun müalicəsinin xəstəxana şəraitində həftələrlə davam edəcəyi açıqlanıb.

**Bəy tapmayıb, özü ilə evlənib**

Ailə qurmaq üçün həyat yoldaşının axtarışları bəzi insanlarda çox uzun müddət davam edir. London sakini olan qız isə vaxtını uzun-uzadı sərf etməyərək həyatı boyu tanıdığı adamla ailə qurub. O, özünə ərə gedib. 24 yaşlı qızın dediyinə görə, bu ideya onun ağlına island müğənni Byorkun "İzabel" mahnısını dinləyərkən gəlib.

"Həmin anı yaxşı xatırlayıram. Perfomans sənətini öyrənirdim, 18 yaşım vardı və bu mahnını eşitdim. "Mənim adım İzabeldir, özüm özümlə evliyəm". Həmin vaxtdan bəri mahnı beynimdə idi" - Qreys deyib. O vaxtdan 6 il sonra Qreys özü ilə evlənmək fikrinə düşüb.

Dediyinə görə, ailə üzvləri, qohumları və dostları bu fikri normal qarşılayıblar: "Valideynlərim çılğın təbiətimə alışıblar. Dostlardan bəziləri belə qərarın eqoizm olduğunu desələr də, məni dəstəklədilər".

Qreys Qedlerin Devonşirdəki toyunda 50 qonaq olub və bu, nikahda həm "bəy", həm "gəlin" olan qızı çox təəccübləndirib.

"Bu qədər adamı görəndə çaşdım. Ən uzağı, 20 nəfəri görəcəyimi düşünürdüm. Yeni statusum əla hisslər bəxş edib. İndi sakitəm, özümə güvənirəm. Fəqət, bundan sonra kiməsə ərə gedəcəyimi istisna etmirəm" - Qrey Qedler söyləyib.

**Çinli balaca qızın toyu - göz yaşları içində**

ABŞ-nın Kaliforniya sakini Cim Zetza xərçəng xəstəliyindən əziyyət çəkib. O da bir ata kimi öz qızının toyunu görmək arzusunda olub. Lakin qızının hələ azyaşlı olması Cimin bu arzusunun tez bir zamanda reallaşdırmasına mane olub. Həkimlər Cim Zetzaya xəstəlik səbəbindən yaxın zamanda öləcəyini deyiblər. Buna görə də Cim Zetza qızı üçün rəmzi olaraq toy mərasimi təşkil edib. Rəmzi toy mərasimində ata və qızı, həmçinin yaxınları göz yaşlarına hakim ola bilməyiblər.

**Havada toy**

Britaniyalı Castin Bann və Karolina Hekvud uçuş zamanı evləniblər. Bunun üçün onlara üç təyyarə və keşiş lazım gəlib. Onların hərəsi təyyarələrdən birində olublar və maraqlı bir konfiqurasiya nəticəsində izdivac gerçəkləşib.

**Su altında toy**

Toylar şəhəri olan Las Veqasda Şarlin və Devid Helmanın toy mərasimi kazino-otel "Silverstoun"un akvariumunda keçirilib. Yəqin ki, bu toydakı ən əcaib foto keşişin "gəlini öpə bilərsiniz" sözlərindən sonra alınıb.

**Buzlquuda toy**

Anna Xoll və Con Boxaç isə Alyaska ştatında yerləşən buz dağının üstündə evləniblər. Hər nə qədər fiziki qanunlarına zidd olsa da, mərasim baş tutub.

**İdman ayaqqabılarında toy**

Yakob Zuma - Afrika Milli Konqresinin yeni lideri öz toyunu köhnə Afrika ənənələri ilə keçirib. O və dördüncü həyat yoldaşı hər nə qədər köhnə adətlərlə evlənsələr də, ağ idman ayaqqabısı geyinərək müasir görünməyə çalışıblar.













**Toy tortu**

Gəlin paltarında olan 20 qadın nəhəng tortun içindəki 50.000 dollarlıq uduşu olan lotereya biletini axtarıblar. Bu tədbir də Nyu-Yorkda, "Braydzillas" realiti-şousunn ikinci mövsümünün açılışı münasibətilə baş tutub.

Özü ilə evlənənlər arasında çinli kişi Lyu Ye də var. O da gəlin tapmağa vaxt sərf etmək istəmədiyi üçün özü ilə evlənib.

Argentina sakinləri - 24 yaşlı Reynaldo Vavikuçi və 82 yaşlı Adelf Marta Volpes 11 illik vətəndaş nikahından sonra evləniblər.

Dünyanın ən uzun sakini olan (2.36 metr) çinli Bao Sişun 168 santimetrlik qadınla evlənib.

**Sonda... Gördüyünüz kimi, toy çılğınlığı, ömür-gün yoldaşı seçmək sahəsindəki əndrəbadiliklər dünyanın hər yerində var. Amma okeanın o tayındakılar üçün bu, bəzən əyləncə, ekstrim, qeyri-adilik naminə baş versə də, Azərbaycanda səbəblər başqadır. Elə yazının girişində bəhs etdiyimiz nümunədə olduğu kimi: imkansızlıq, toy məsrəfləri boşa getməsin deyə... yeni bir gəlin. Bu da bir ekstrimdir əslində. "Ginnesin rekordlar kitabı"na düşəcək qədər sürətli bir şəkildə gəlin tapma aksiyası...**

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7068) 25 avqust 2018

# 30 il əvvəlki "Araz" radiosu, bir də "Qarabağ"...

## "Qarabağ"dakı heyət problemi bütün sistemə sirayət etmiş kimi görünür...

**Avropa Liqasının pley-off mərhələsinin ilk qarşılaşmasında "Qarabağ" səfərdə "Şerif"ə minimal hesabla(0:1) məğlub oldu. Ötən mövsüm Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Qarabağ" Bakıda qolsuz heç-heçə edəndə narahat idik ki, klub Tiraspol səddini keçməyə bilər. Tiraspoldakı qarşılaşmada isə "Qarabağ" 2:1 hesablı qələbə qazanaraq "Şerif"i mübarizədən kənarlaşdırdı. Bu dəfə isə "Qarabağ" ötənilki uğurunu təkrarlaya bilmədi və Bakıya məğlub qayıtdı.**

***

**Maliyyə səbəbindən oyun canlı yayınlanmadı və yəqin ki, çox az adam bəzi saytların haradansa götürdükləri linkləri tıklamaqla qarşılaşmanı izləməyə məcbur oldu.** Şəxsən mənim tez-tez "donan" keyfiyyətsiz yayınla oyuna baxmağa sonadək səbrim çatmadı. Yalnız ara-sıra "Real tv"nin küncünə sıxışdırılmış yayına, arada da telefonda hesabı izləməyə məcbur qaldım. Əlimdə telefon sağa-sola gedəndə yadıma uşaqlıqda "Neftçi"nin səfər oyunlarını radioda dinləməyimiz düşdü. Hər evdə radio olmadığı vaxtda kimdənsə keyfiyyətli radioqəbeldici tapar, "Araz"a kökləyər və hamı onun - Çingiz İsmayılovun "başına yığışardı". Adam həmin ötən günlərə çox heyfslənir. Amma üzücü olan hələ nə futbolumuzda, nə texnikamızda elə də irəliləyişin olmamasıdır. Camaat kosmosda ev tikməyə hazırlaşır, biz hələ korsan saytlardan yayın edirik...

**"Qarabağ" üçün tapılmayan 150 min avro və çocuqlar..." yazısında bu mövzuda bəzi qeydləri etmişəm və doğrusu, məğlubiyyətdən sonra yenidən bu məsələni qabartmağa lüzum qalmayıb.** Baxdığım dəqiqələrdə nə "Şerif"in, nə "Qarabağ"ın futbolunu görmədim. Əsasən, meydanın mərkəzində sarı və qara formalı adamların sayrışması vardı...

Oyundan sonra yayınlanan qol epizoduna təkrar-təkrar baxdım. Meydanın mərkəzində topu itirən "Qarabağ"ın üç müdafiəçisinin yanından cərimə meydançasına ötürülən topu "Şerif"in oyunçusu asanlıqla komanda yoldaşına göndərə bildi. Bu vaxt "Qarabağ"ın 6 oyunçusu artıq cərimə meydançasına çata bilmişdi. Rəqib isə cəmi üç nəfər idi. Amma bu, 88 nömrəli oyunçunun 8-ci dəqiqədə qol vurmasına əngəl ola bilmədi.













***

Təəssüf ki, ümidlərimizə baxmayaraq, "Qarabağ" məyus etməkdə davam edir... "Qarabağ" "Şerif"dən güclüdür, Tiraspoldan qələbə, şərəfli nəticə ilə qayıdacağıq" kimi optimist əhval-ruhiyyəyə baxmayaraq, Bakıya qapımızda qol döndük. Avropa Liqasının pley-off mərhələsində keçirilən ilk oyunlardan sonra UEFA reytinqində də dərhal geriləmişik. "Şerif"ə uduzduğu üçün 18.250 xalı olan ölkəmiz 1 pillə geriləyərək 26-cı pilləyə düşüb. 2018 dəyəsən, Azərbaycan klubları üçün heç düşərli olmadı...

**Baş məşqçi Qurban Qurbanov** oyundan sonra keçirdiyi mətbuat konfransında "Şerif"i tərifləyib. "Rəqib müdafiədə çox yaxşı təşkilatlanmış komandadır. Olduqca intizamlı oynadılar, bu da onların necə yaxşı komanda olduğunu göstərir" deyə, o bildirib(qol.az).

**Mütəxəssis ötən illə müqayisədə builki nəticələrinin yaxşı olmaması fikri ilə razılaşıb:** "Ümumi baxsaq, özümüzü düşünsək, nəticəmiz yaxşı deyil. Ötən il Çempionlar Liqasının qrupunda oynamışdıq, indi isə Avropa Liqasının qrup mərhələsi uğrunda mübarizə aparırıq".

**Baş məşqçi avqustun 30-u Bakıda keçiriləcək cavab matçı haqda bunlarını deyib:** "Şerif" 1:0 hesablı qələbə qazansa da, qrup mərhələsi üçün şanslarımız qalır. Bu şansdan da cavab matçında maksimum istifadə etməyə çalışacağıq".

**"Şerif"in baş məşqçisi Qoran Sabliç qələbənin çətin əldə olunduğunu deyib.** "Əvvəldən də bunu gözləyirdik. Avroliqa qarşılaşması, ardınca "Milsami" ilə çempionat oyunu və nəhayət, "Qarabağ"la matç. Bütün bunlara tab gətirmək lazım idi. Oyun komponentlərinə gəlincə, oyunçularım yuxarı-aşağı istədiklərimi həyata keçirdilər. Bir qədər təəssüflənirəm ki, yetərincə gücümüz olan zaman kəsiyində ikinci qolu vura bilmədik" deyə, baş məşqçi bildirib. ("Qafqazinfo").

**Sabliç təkrar görüşdə daha yaxşı oynayacaqlarını vəd edib:** "Düşünürəm ki, komandam bir həftə sonra daha yaxşı vəziyyətdə olacaq. Uşaqlar xarakter nümayiş etdirdilər. Hər kəs hücumda da, müdafiədə də işlədi. Futbolçularımız belə bir güclü rəqiblə oynamaq iqtidarında olduqlarını nümayiş etdirdilər. Taktiki cəhətdən ağıllı oynadılar, intizamı pozmadılar. Bu cür rəqiblərlə ərazi üstünlüyünə sahib olmaq mübarizəsi aparmaq mümkün deyil. Bəli, topa nəzarət edirdilər, ancaq ciddi qol epizodu - son dəqiqədəkini saymasaq - yarada bilmədilər".

**Xorvat mütəxəssis "Qarabağ"ın oyunu haqda dedikləri daha çox diqqətəlayiqdir.** "Bir həftə ərzində xeyli sayda oyunlarını izləmişdik. Heç bir yenilik görmədim. Onlar ərazi üstünlüyü, topa nəzarət hesabına təzyiq göstərməyə çalışırlar. Cinahlarda sürətli oyun göstərmək istəklərindən də xəbərdar idik".

***

"Qarabağ"ın problemlərinin sırf heyətlə bağlı olduğunu hamı bilir. Bu cür problemi indi nəinki bizimkilər, qonşu Türkiyə, Rusiya və Avropa liqalarında mübarizə aparan tanınmış klublar da yaşayır. Amma nəsə fikirləşmək lazımdır. Ya taktiki planda, ya ümumi sistemdə. Heyət problemi əlbəttə ki, bunun ikisinə də təsir edir. İndi "Qarabağ"dakı heyət problemi bütün sistemə sirayət etmiş kimi görünür. Qurban Qurbanovun problemi isə indi təkcə "Qarabağ" deyil, qarşıda elə xeyli problemləri olan milli komandanın Millətlər Liqasındakı oyunları gəlir...

**Bəs, təkrar oyunda nə gözləyə bilərik? Qurban Qurbanov deyib ki, cavab oyunu üçün heyətdə ciddi dəyişiklik olmayacaq:** "Taktika dedikdə, bir o qədər də dəyişiklik olmayacaq. Sadəcə, ola bilər, sistemdə kiçik bir dəyişiklik olsun. Qalib gəlmək üçün daha aktiv, daha aqressiv olmalıyıq. Düşünürəm ki, bunu öz meydanımızda edə biləcəyik".

Yenə də ümid edək ki, Bakıdakı təkrar oyunun sonunda Avroliqanın qrupundakı "Qarabağ"ı təbrik edəcəyik. Qrupda oynamaq indi "Qarabağ"a çox lazımdır, həmişəkindən həm də daha çox... Çünki bu klubun ÇL itirilmiş motivasiyasını özünə qaytara bilər. Heyətdəki yenilər də Avropa stadionlarında özlərini doğrultmağa çalışar, heyət stabilləşər...

**❑ Nazim SABİROĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 179 (7068) 25 avqust 2018



## Manekenlə taksi sürücüsünün sevgisi ölkəni təəccübləndirib

Tailandlı maneken mototaksi sürücüsü olan sevgilisi ilə münasibətlərindən danışaraq sosial şəbəkədə məşhur olub. Bu barədə yerli nəşr "Coconuts" məlumat yayıb. Banqkok sakini Natnat Çeyçan manekenlik agentliyində çalışır və 5 ildir ki, 25 yaşlı taksiçi Utiçay Senqinunomla görüşür. 22 yaşlı qız deyib ki, onun sevgilisi yaxşı qazanır və o, gənc adamı çox sevir. "Sən nə yesən, mən də onu yeyəcəm. Sən hara getsən, mən də ora gedəcəm. Bizə görə sən hər cür çətin işi boynuna götürürsən və yorğunluğa görə şikayətlənmirsən". Bunu da gənc qız sevdiyi oğlan barədə yazıb. Maneken eyni zamanda deyib ki, rəfiqələri onun bu seçimini anlamasalar da, kasıb adamlara da yuxarıdan aşağı baxmırlar.

Onun taksiçi sevgilisi barədə yazdıqları on minlərlə bəyənmə toplayıb. Bundan sonra onu ölkənin televerilişlərinə çağırıblar. Senqinun deyib ki, onlar kasıb bir şəhərdən birgə gəliblər. Öncə özü paltar, ayaqqabı satıb, amma bu biznes onu varlı etməyib. Çeyçan manekən olana, onun sevgilisi isə taksidə iş tapana qədər onlar "acından ölürdülər".

# Qarnından çıxan saçın miqdarı şok etdi - 1 kilo 360 qram

Jasmin Percival adlı gənc qadın uşaqlığından bəri televizora baxanda saçlarını barmaqlarına dolayıb, onu əmirdi. Mirror.co.uk internet saytında yayımlanan xəbərə görə, Jasmin 14 yaşına gəldiyi zaman dayanılmaz qarın ağrıları başlandı. Həkimlər ona bağırsaq iltihabı diaqnozu qoysalar da, onun ağrıları heç cür keçmək bilmədi. Ağrıları o qədər şiddətli idi ki, gecələr bağıraraq oyanırdı. Jasmin 2 ildən artıq1 davam edən sancıları haqda belə danışıb: "Yemək istəyirdim, amma nə yesəm, mədəmə enib, geri gəlirdi. Mədəm düyünlənirdi. Getdikcə zəifləyirdim, skelet kimi görünməyə başlamışdım. Həkimlər çoxlu dərman verdi, amma heç biri işə yaramadı. Təkrarən həkimə gedib aparata düşəndən sonra isə məlum oldu ki, mədəmdə 1 kilo 360 qram ağırlığında topa saç var".



Qızın qarnındakı saç yığını qeysəriyyə əməliyyatı ilə alınıb. Bu pis vərdişini isə əməliyyatdan sonra atıb. Artıq o, saçını əmmir. Hətta bunu etməmək üçün saçını bərk-bərk yığır.

# Sevgilisindən ayrıldı, beş bədən ölçüsü arıqladı



Böyük Britaniya sakini sevgilisindən ayrılandan sonra beş ölçü arıqlayıb. Bu barədə "Daily Star" nəşri xəbər verib. Bet Kempbell adlı qız özündən xeyli yaşlı olan bir kişi ilə 3 il vətəndaş nikahında yaşayıb. Onlar o qədər də aktiv olmayan həyat tərzi keçiriblər və tez-tez evə fast food sifariş ediblər. Müəyyən bir müddət sonra 25 yaşlı qızın özünə inamı o dərəcədə azaldı ki, o, ətrafdakıların baxışlarından narahat olduğu üçün hətta bayıra da çıxmırdı. Kempel bir gün sevdiyi kişi ilə fotosuna baxandan sonra dəhşətə gəlib və qərar verib ki, mütləq həyat tərzini dəyişməlidir. Qız kişidən ayrılıb və idmanla məşğul olmağa başlayıb. O, eyni zamanda şirniyyatdan və fast food qidalardan da imtina edib. Daha çox tərəvəz və zülal tərkibli qidalar yeməyə başlayıb. Amma onun üçün bunu etmək çətin idi, çünki ailə üzvləri sağlam qidalanmaya önəm vermir, əksinə, tez-tez evə zərərli yeməklər sifariş edirdilər. Tezliklə Kempbel özündə cəsarət taparaq idman zalına gedib, daha sonra da arıqlayanlar üçün düşərgəyə baş çəkib.

Nəticədə qız XXL bədən ölçüsündən XS bədən ölçüsünə düşüb. O, idman zallarından birində məşqçi işinə düzəlib və həftədə beş dəfə məşğələ keçir.




**QOÇ** - Rastlaşacağınız hadisələr daha çox öz rəftar və gedişlərinizdən asılı olacaq. Belə bir ərəfədə hansısa risk uğursuzdur. Əgər planlaşdırmısınızsa, bu gün mütləq səfərə çıxın.

**BUĞA** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Amma maraqsız proseslərə müdaxilə etməsəniz, bunun qarşısını az da olsa, ala biləcəksiniz. Əsəblərinizi qoruyun. Axşamsa qonaq gedin.

**ƏKİZLƏR** - Göy qübbəsi işdən kənarda hansısa uğura yiyələnəcəyinizə təminat vermir. Əksinə, yersiz mübahisələr, ifrat yorğunluq ovqatınızı korlaya bilər. Diqqəti ailə-sevgi münasibətlərinə yönəldin.

**XƏRÇƏNG** - Sağlıq durumunuza diqqət yetirsəniz, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Günün ikinci yarısında aldığınız hər bir işgüzar təklifə razılıq verin.

**ŞİR** - Axşam saat 18-ə qədər ümumi vəziyyət xeyrinizədir. Nüfuzlu adamlarla görüşləriniz müsbət nəticə verəcək. Amma ixtiyarınızda olan bu ərəfədə hisslərinizi də cilovlamalısınız.

**QIZ** - Hər mənada əhəmiyyətli gündür. İstər fəaliyyət göstərdiyiniz sahələrdə, istərsə də qarşılıqlı münasibətlər zəminində uğurlarınız gözlənilir. Yalnız pulla bağlı qanqaraçılıq mümkündür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə sizə əsəb gətirən adamlardan uzaq olmalısınız. Yoxsa bu hal bütün maddi-mənəvi sərvətlərinizi tari-mar edəcək. Günortadan sonranı sevgiyə həsr edin.

**ƏQRƏB** - İş metodunuzda yenidənqurma aparmağa səy göstərin. Bununla siz gələcək perspektivlərinizə işıq saça bilərsiniz. Səmərəsiz iş prinsipindən qaçın. Nahardan sonra təzə xəbər eşidəcəksiniz.

**OXATAN** - İşgüzar görüşlər keçirmək üçün çox səmərəli vaxtdır. Ona görə də bütün enerji və diqqətinizi məhz bu istiqamətə yönəltməlisiniz. Maliyyə sövdələşmələrinə isə girişməyin.

**OĞLAQ** - Təlatümlü gün olmasa da, mülayimlikdən də əsər-əlamət olmayacaq. Odur ki, riskdən və həyatınız üçün önəmli olmayan məsələlərdən uzaq durmalısınız. Məsləhətləşmələrdən yayınmayın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər xoşagəlməz işlərə cəlb oluna bilərsiniz. Buna baxmayaraq belə hallarda öz mənafelərinizi qorumalısınız. Nahardan sonra bəxtinizin gətirəcəyi gözlənilir.

**BALIQLAR** - Ulduzlar taledən gileylənməyinizə heç bir əsas görmür. Çünki ixtiyarınızda olan bu təqvim sizə olduqca xoş ovqat bəxş edəcək. Məhəbbət amili isə başlıca xilas mənbəyinizə çevriləcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Barbi sevgisi 70 min dollara başa gəldi



Los Anceles sakini onu əhatə edən bütün əşyaların Barbi gəlinciyi ilə bağlı olması üçün 70 min dollar sərf edib. 34 yaşlı Azusa Sakamoto bu günə qədər 140 ədəd gəlincik, 40 cüt ayaqqabı, 60 çanta alıb. Bundan başqa, otağının Barbi stilində təmiri və Barbi aksesuarları üçün də 1000 dollar xərcləyib. Yaponiyadan köçən qadın manikür ustası olaraq çalışır, 20 ildir ki, bu əşyaları, oyuncaqları yığır. Özü etiraf edir ki, faktiki bütün gəlirini buna sərf edir: "Mənim bütün mənzilim Barbi atributları ilə doludur. Yataq otağım, xalçalarım, divarlarım, aksesuarlarım ancaq Barbidən ibarətdir". Qadin Barbi gəlinciyinə həsr olunmuş İnstaqram səhifəsinin də sahibidir. 2016-cı ilin aprelində məlum olmuşdu ki, Helsinkinin iflic olmuş sakini Barbi gəlinciyinə bənzəmək üçün 2 il boyunca 14 min dollar xərc çəkib. Jasmin Britni adlı qızı 1998-ci ildə maşın vurandan sonra, xarici görünüşünü dəyişib və plastik əməliyyatların şəkillərini, videoçəkilişlərini sosial şəbəkədə paylaşıb. Onun geyim və makiyaj xərcləri valideynləri tərəfindən ödənilirdi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100